# Əmrah Əmrahov

## Tapılmış kitab

## Povest

BAKI

GƏNCLİK - 1967

## KEÇİDDƏ HADİSƏ

Gecə öz qara pərdəsini aram-aram çəkirdi. Uzaqlardan, yerin dərinliklərindən zəif bir işıq günəşə çevrilib aləmi gündüz etdi. Bayaqdan görünən qara kölgələr göz önündə böyüyüb, qollu-budaqlı ağaclara çevrildi. Yaxınlıqdakı dağların, dərələrin qırmızı, sarı güllərin yaşıl məxməri xatırladan tər otların içərisindən baş qaldırıb çəmənləri bəzədi.

Səlmi arvad hövlnak yuxudan oyandı. Ona elə gəldi ki, səhər çoxdan açılıb. Ancaq evi yarıqaranlıq gördükdə bir qədər sakit oldu. «Yaxşı vaxtında oyanmışam»,-deyə fikirləşdi və dərhal oğlunu səslədi:

-Muxtar! Muxtar!.Muxtar cəld yataqdan qalxdı.

-Saat neçədir?

-Saata baxmamışam. Ancaq vaxtdır.

Muxtar cəld geyinib, tövləyə getdi. Səlmi xala da xurcunu gətirib səkinin qırağına qoydu. Muxtar Kürənin cilovundan tutub bayıra çıxanda xurcunu görüb deyinməyə başladı:

-Arvadın hövsələsi yoxdur da. Bu ağırlıqda xurcunu da adam tək gətirər?

Muxtar atı açıb gətirincə Səlmi xala da bir yuxanın arasına yağ, pendir doldurub bürmələmişdi. O, Muxtarı görən kimi:

-Bax, bunu lap üstə qoyuram, yolda yeyərsən,-dedi.-Yoxsa gəlincə acarsan.

-Nəyi?-Muxtar yuxanı götürüb bir diş vurdu, ağzını marçıldada-marçıldada dedi:-Yaxşı onun işinə lap kənddən çıxmamış baxaram.

Sonra hərəsi xurcunun bir tərəfindən tutub atın üstünə saldılar.



Muxtar həyətdən çıxanda anası dedi:

- Atana deginən qutabları qızdırıb yesinlər. Bir də Muxtar, soruş gör nə istəyirlər, gələn dəfə bişirim.

Muxtar:

- Baş üstə, ana! Baş üstə!-deyib sağ əli ilə atın sağrısına bir şapalaq vurdu. At götürüldü.

Atın ayaq səslərinə qonşu itləri hürüşdü. Sonra aşağı məhəllənin itləri də onlara səs verdi. At ayaqlarının səsi uzaqlaşdıqca itlər sakitləşdilər. Ancaq arabir qoyun-quzu mələşməsi, yatıb səhərə qalan xoruzların banı eşidilirdi.

Muxtar kənddən çıxdı. Dar cığırla çapan at onu dağların yamaclarına doğru aparırdı. Lap yaxınlıqdan kolxozun meyvə bağları başlanırdı. Ağacların, min rəngə çalan çiçəklərin, tər otların ətri oğlanın könlünü oxşayırdı. O, çobanyastığını görəndə atası ilə yaylaqda olduğu günləri, yatanda çobanyastığını başının altına yığdığını xatırladı. Sonra da atasının dostu, ömrünü dağlarda keçirmiş qoca çobanın ona öyrətdiyi mahnını oxudu:

Yumru, yumru qayalar
    Yumruğudur çobanın,
Yastı-yastı qayalar
    Yastığıdır çobanın...

At sürətini yavaşıtdı. Muxtar əli ilə onun boynuna vurdu, yalını tumarlayıb dedi:

-Kürən, tərpən!

At dil bilirmiş kimi bu nəvazişə cavab olaraq dördnala çapdı. Muxtar da sevinclə üzəngidə ayaq üstə durdu, əllərini havada yellədi. At çapdıqca o da ciyərdolusu nəfəs alır, səhərin büllur kimi saf havasını ləzzətlə udurdu.

Yeni oyanmış quşlar aramsız olaraq öz nəğmələrini oxuyurdular. Bu, Muxtarı fərəhləndirirdi. Xırda dağ çaylarının yeknəsək ahəngi də onun qulaqlarında xoş bir mahnı kimi səslənirdi.

O, gəlib, dağların belinə dolana-dolana gedən və nəhayəti görünməyən yola çıxdı. Yol buradan başlanırdı. Bunu Muxtar da, onun sevimli Kürəni də yaxşı bilirdi. Odur ki, Muxtar cilovu dartan kimi at da addımlarını yavaşıtdı. Bayaqdan çapdıqca həvəslənən Kürən indi ağır gedir, sanki özünü keçilməsi çətin olan dağ yoluna hazırlayırdı.

Bu yol çətin olsa da, Muxtar onu xoşlayırdı. Atası deyərdi: «Hər şey asanlıqla başa gəlsə dünyada yaşamağın ləzzəti olmaz. Çətin işlər, çətin günlər yadda qalır».

Muxtar fərəhləndi. Bu yerlərin hər qarışı, hər keçidi ona daha doğma, daha əziz gəldi. Gör ətraf necə də gözəldir! Bir qədər aşağıda çaylar bir-birinin qoynuna dolaşaraq axır, gah da yüksəkliklər, təpələr, dağlar onları elə ayırır ki, bir daha görüşmürlər. Yaşıllıqlar, uzaqlarda qaralan meşələr, həmişə başıqarlı dağlar da buradan çox aydın seçilir. Lap uzaqlardan gələn yollar onların yaşıllığa qərq olmuş kəndində birləşir.

Bütün bunları seyr etdikcə Muxtarın fərəhi artırdı. Kim bilir, o, bu yolla neçənci dəfə idi ki, atası üçün yaylağa yemək aparırdı? Amma ona elə gəlirdi ki, o, birinci dəfədir ki, bu yolla gedir, birinci dəfədir ki, bu könülaçan mənzərələri seyr edir.

Dar cığır gəlib Garvan dağının ətəyindən başlanan enli yoxuşa çıxırdı. Yoxuşla bir qədər getdikdən sonra isə dar dağ yolu başlanırdı. Özü də dağın lap kənarından keçirdi. Muxtar bura çatdıqda atın cilovunu bərk çəkdi:

-Kürən, ehmal-ehmal get!-deyə səsləndi.

At fınxırdı, sanki dedi: «Baş üstə, balaca sürücü!» Özü də aram addımlarla üzüyuxarı dırmanmaqda davam etdi. Muxtar gözucu aşağıya baxdı. Buradan dərələr çox vahiməli görünürdü. Elə bil nağılları uyduranlar bu dərələrə baxmışdılar. Sonra da, o, öz-özünə fikirləşdi: «Görəsən, dağın başqa tərəfindən yol salmaq olmazdı?» Muxtar bunu düşünürdü ki, atın dırnağı altından çıxan bir daş üzüaşağı yuvarlandı və özü ilə bərabər yüzlərlə daşı dərənin dibinə apardı. Dərədən toz qalxdı. Birdən at dayandı. Bu, Muxtarı təəccübləndirdi. O, qabağa baxdı. Bir az aralıda bir adam üzüqoylu düşmüşdü.

-Bu kim ola?-deyə Muxtar dəhşətə gəldi. Sonra da ucadan çağırmağa başladı:

-Ay dayı! Ay dayı!

O, bir neçə dəfə çağırdısa da «yatmış» kişi hay vermədi.

-Əcəb işə düşdük. Ə, heç burada da yatarlar?!- deyə Muxtar deyinməyə başladı.-Bəlkə at hürkəydi. Onda nə edərdim? Bu dərələrdə qurd-quşa yem olardım ki...Muxtar cəld atdan düşüb kişinin yanına gəldi. Onun başını tutduğu sağ əlini tərpətmək istədi. Lakin əlinin altına yığılmış qanı gördükdə duruxdu. Kişinin ağzından axan qan qolunun altında laxtalanıb qalmışdı. Rəngi də saralmışdı.

«Bu nə məsələdir belə?-deyə Muxtar düşündü.-Burada bir sirr var!»

O, cəld ata minib bu hadisəni milis şöbəsinə xəbər vermək üçün geri qayıtdı.

## QORXULU YER

Muxtar çətin dağ yolu ilə atı üzüaşağı dördnala çapa bilmədiyi üçün darıxırdı. Ancaq nə etmək olardı. Burada atı bərk sürmək olmazdı, atın ayağı büdrəsəydi, tikələri tapılmazdı. Eniş qurtaran kimi o, ayaqlarını atın yanına vurdu.

-Haydı, Kürənim! Cəld ol, tərpən!

At quş kimi uçdu. Muxtar bayaqdan heyran-heyran süzdüyü mənzərələri indi tamam unutmuşdu. O, Kürənin da tilovunu çəkir, ayaqlarını onun böyürlərinə döyüb tələsdirirdi.

Bütün yolu götür-qoy edən Muxtar kəndə nə vaxt çatdığını belə hiss etmədi. O, yolunu Kərimgilin həyətindən saldı. Çünki bu yol kəsmə idi. Həyətdən çıxan kimi artıq onların kəndlərinə qarışmaqda olan rayon mərkəzi, dövrəsində uca çinarlar olan rayon milis idarəsinin ikimərtəbəli ağ binası, ağacların altına əyləşmiş adamlar aydın görünürdü. Bir nəfər avtomaşının tozunu silirdi.

Kürən bir göz qırpımında Muxtarı milis idarəsinə çatdırdı. Muxtar maşını təmizləyən adamı tanıdı. Bu milis idarəsinin şoferi idi. Bir dəfə o, maşınını Muxtargilin evinin yanında saxlayaraq demişdi:

- Ay qoçaq oğlan, bir vedrə su gətir, maşına tökək.

Muxtar şoferə çatan kimi salam verdi və soruşdu:

-Əmi, milis idarəsində kim var?

Şofer onun danışığından və qan-tərə batan atın aramsız fınxırmasından nə isə bir hadisə olduğunu başa düşdü, ona görə də dərhal cavab verdi:

-Bala, hamı buradadır, nə olub? Kimi istəyirsən?

-Mən milis rəisini istəyirəm.

Elə bu vaxt milis paltarı geymiş hündürboylu bir kişi qapıdan çıxıb maşına sarı gəldi.

Şofer dedi:

-Yoldaş İsrafilov, bu oğlan sizi istəyir.

-Buyur, oğlum, mən səni dinləyirəm.

Muxtar atdan düşmədən:

-Yoldaş rəis,-deyə danışmağa başladı,-Mən atam üçün yaylağa yemək aparırdım. Karvan dağının döngəsinə az qalmışdım ki, birdən at dayandı. Qabağa baxıb gördüm ki, bir nəfər üzüqoylu düşüb. Nə qədər çağırdımsa ayılmadı.

-Ayılmadı? -deyə rəis təəccüblü nəzərlərlə Muxtara baxdı.

-Yox, -deyə Muxtar sözünə davam etdi.-Sonra atdan düşüb ona yaxın getdim. Qolundan tutub silkələdim. Başının yarasını, ağzından axaraq laxtalanmış qanı gördükdə qorxub, xəbər vermək üçün tez buraya gəldim. O, ölmüşdü.

-Ölmüşdü?-deyə İsrafilov qaşlarını düyümlədi.

-Namazov, tez ol maşını işə sal. Sonra üzünü növbətçiyə tutub dedi:

-Yoldaş Məmmədova zəng vur aşağı düşsün. Rayon xəstəxanasına da de ki, ya professor özü, ya da həkimlərdən biri təcili yardım maşınına minib dağ yoluna çıxsın.

İsrafilov ilə Məmmədov maşına əyləşdilər. Onlar aralarında məsləhətləşdikdən sonra rəis dedi:

-Balaca, atı bağla, gəl maşına.

Muxtar maşına minən kimi rəis şoferə dedi:

-Bir az cəld sür! İndi saniyələrin hökmü var.

Onlar dağ yoluna çatanda təcili yardım maşını ilə qarşılaşdılar. Professor kabinənin şüşəsini aşağı çəkib soruşdu:

-Yoldaş İsrafilov, hara gedirik?

-Karvan keçidinə.

Maşınlar daban-dabana, sürətlə gedirdi. Əsgər maşını at yolu ilə getsə idi, Karvan keçidinə iyirmi-iyirmi beş dəqiqəyə çatardı. Heyf ki, bu mümkün deyildi. Hadisə yerinə dolama maşın yolu ilə getmək lazımdı. Bu da bir saata yaxın vaxt aparacaqdı. Odur ki, həm rəis İsrafilov, həm də professor Qüdrətov çox narahat görünürdülər. İsrafilov təlaşla dedi:

-Mən on ildir bu rayonda işləyirəm, bir dəfə də olsun belə hadisə görməmişəm. Mənim rayonumda adam öldürmək hadisəsi hələ eşidilməyib.

-Ola bilər ki, dağdan-zaddan yıxılıb, özü də ölməyib sağdır, bu balaca oğlan yaxşı baxmayıb,-deyə şofer söhbətə qarışdı.

-Yox, baxmışam, özü də lap diqqətlə,-deyə Muxtar qəti etirazını bildirdi.

-Düz olar,-deyə milis leytenantı da onun fikrini təsdiq etdi.-Çətin yoldur, hər cür hadisə baş verə bilər.

Maşında oturanların hamısı papirosa tez-tez qullab vurur, onsuz da havasız olan maşını tüstü ilə doldururdular. Buna görə də Muxtarın gözləri yaşarır, boğazı qovuşurdu. İsrafilov isə papirosun birini qurtarmamış o birisini yandırırdı.

Muxtarın lap ürəyi darıxdı: «Eh, bilmirəm camaat bu papirosda nə görüb. Nə ətri var, nə də ləzzəti cana da faydası yoxdur!»

Muxtar bu fikirdə idi ki, birdən şofer tormozu çəkib dedi:

-Yoldaş İsrafilov, Karvan keçidinə çatdıq.

Milis rəisi İsrafilov, milis leytenantı Məmmədov dərhal maşından düşdülər. Muxtar da uşağa məxsus cəldlilklə maşından yerə hoppandı. Bu zaman təcili yardım maşını gəlib çatdı. Professor Qüdrətov, ekspert həkimi Səlimov maşından enərək İsrafilovun yanına gəldilər. İsrafilov təəccüblə qabağa baxdı.

-Burada ki, heç bir şey yoxdur,-dedi.

-Yox, yoldaş İsrafilov, mən deyən yer bura deyil. Bu cığırla aşağı düşmək lazımdır,-deyə Muxtar izahat verdi. Sonra da qabağa düşüb bələdçilik elədi. Onlar yetmiş-həştad metr getmişdilər ki, birdən Muxtar dayandı:

-Bax, həmin adam odur. Hamı baxdı. Qabaqda bir kişi üzüqoylu düşmüşdü. Professor cəld onun nəbzini tutdu.

-Sağdır!Ürəyi vurur!-Professorun üzündə sevinc parladı. Bunu balaca Muxtar da sezdi. Onun da dodaqları qaçdı, girdə sifətində təbəssüm göründü.

Professor dedi:

-Yoldaş Səlimov, o apteçkanı yaxın gətir görüm. Çox ağır yaralanmışdır. Mənə elə gəlir ki, beyni zədələnmişdir.

Professor və həkim Səlimov yaralıya ilk tibbi yardım göstərməyə başladılar.

Muxtar mat qalmışdı. Bayaqdan yaralını görməyə tələsən milis rəisi İsrafilov indi heç onunla maraqlanmır, milis leytenantı Məmmədovla yerə baxa-baxa yuxarı yola tərəf gedirdilər. Muxtarı təəccüb götürmüşdü. Axı onlar nə edirlər? O, gah professorgilə, gah da İsrafilovgilə nəzər yetirir, öz-özlüyündə götür-qoy edirdi. Birdən Məmmədovun səsi onu düşüncələrdən ayırdı:

-Yoldaş İsrafilov, bax, bu ləpirlər balaca oğlandır. Bəs bu ləpirlər kimindir?

- Mən də onu fikirləşirəm. Görürsən?-deyə İsrafilov Məmmədova cavab verdi.

-Özü də cığırla yox. Buradan maşın yoluna dırmaşmışdır. Ayağında da çust olmuşdur. Çustu də cırıq imiş. Bu da onun baş barmağının yeridir,-deyə torpaq üzərində azca çuxura düşmüş yeri göstərdi. Məmmədov onunla razılaşdı. İsrafilovgil ləpirlərin izi ilə dağa dırmaşanda Muxtar professorun səsini eşitdi.

-Səlimov, tez olun, xəstəni maşına aparın!

Səlimov ilə şofer hərəsi xərəyin bir tərəfindən tutub, yaralını maşına apardılar. Muxtar da onların dalınca getdi. İsrafilovgil dağa qalxdılar, bir az keçmiş daşlıq başlandı, izlər itdi. Daşlıq düz maşın yoluna qədər uzanırdı. Ona görə də burada heç bir tədqiqat aparmaq mümkün deyildi. Lakin nə İsrafilov, nə də Məmmədov nəzərlərini qayalıqdan çəkmirdilər. Onlar maşın yoluna çıxdılar. Buradan çoxlu maşın keçdiyindən yalnız təkər izləri görünürdü. İsrafilov dedi:

-Bu da yol. Əgər hadisədən sonra buradan maşın keçməsə idi, həmin izlərin hara getdiyini tapardıq. Məmmədov dedi:

-Əlbəttə, yaralının hansı maşından atıldığını da öyrənərdik. Heyf... Kələfin ucunu itirdik.

-Yox, Məmmədov,-deyə İsrafilov əlavə etdi.-Biz kələfin ucunu tapmalıyıq.

İsrafilov və Məmmədov söhbət edə-edə bir neçə addım da üzüaşağı getmişdilər ki, Muxtar yüyürə-yüyürə qışqırdı:

-Yoldaş İsrafilov, professor çağırır. İsrafilov bir qədər geri döndü:

-Siz gedin, biz də gəlirik,-dedi.

Professor cəld keçib şoferin yanında əyləşdi. Muxtarı da kabinəyə çağırdı.

-Gəl, darısqallıq da olsa mənim yanımda otur,-dedi. Səlimov professorun fikrini başa düşdü. O, istəmirdi ki, Muxtar yaralı ilə bir yerdə olsun, uşaqdır, qorxa bilərdi. Buna görə də o, Muxtarın ləng tərpəndiyini görüb dilləndi:

-Keç rrofessorun yanına! Onlar maşına minən kimi şofer qazı basdı. Onlar Muxtarın qəlbində həmişəlik iz buraxan bu qorxulu yerdən uzaqlaşdılar.



**O, YOLDA ÖLDÜ**

Təcili yardım maşını xəstəxananın qarşısına çatanda həkim Səlimov başını maşının pəncərəsindən çıxarıb kabinədə oturmuş professoru təlaşla səslədi:

-Yoldaş professor, nəbzi dayandı!

-Dayandı...

Professorun sözü yarımçıq qaldı. Şofer maşını lap səkinin altında saxladı. Həkimlər və şəfqət bacıları maşını dövrəyə aldılar. Professor cəld maşından düşüb dedi:

-Tez olun, cərrahiyyə otağına gətirin!

Həkimlər yaralını düşürüb içəri aparanda Muxtar gözucu onun saralmış üzünə baxdı və özünü saxlaya bilməyib ağladı.

- Ağlama oğlum,-deyə ağ xalatlı bir qadın, onu qucaqlayıb öpdü.

- Nəyindir, atandır?-deyə soruşdu.

Muxtar hıçqıra-hıçqıra yalnız «yox» deyə bildi. Boğazı qəhərləndi. Sanki güclü bir əl onu boğurdu. O, xəstəxanaya cərrahiyə otağına getmək istədi. Lakin onu buraxmadılar. Bayaqdan onunla söhbət edən qadın əlindən tutub xəstəxananın bağına apardı. Muxtar burada salxım söyüd altında oturub söhbət edən İsrafilov və Məmmədovu gördü. Özünü ələ aldı, yaylığı ilə gözlərinin yaşını qurutdu. İsrafilov onu görüb çağırdı.

- Gəl burda otur!

Sonra saatına baxdı. Məmmədova müraciətlə:

- Düz yeddi dəqiqədir ölüb,-dedi.-Beşcə dəqiqə tez olsa idi.

- Bu sözdən sonra daha heç kim danışmadı. Birdən xəstəxananın bağa baxan pəncərəsi açıldı.

- Yoldaş İsrafilov, - deyə həkim Səlimov çağırdı.

Bu zaman professor onun yanından gəlib keçdi. Səlimovun sözü yarımçıq qaldı. O, pəncərəni örtdü. Ancaq İsrafilov onun baxışlarında bir nikbinik sezdi. O, cibindən portsiqarını çıxarıb kibrit üçün ciblərini axtardı. Bu vaxt Məmmədov alışqanı yandırdı və ona sarı tutdu. İsrafilov papirosa qullab vurdu:

- Səlimov, nəsə -deyə çəkdi...

Aralığa sükut çökdü. Hər üçünün üzündə görünən ani ümid hissləri yox oldu. Onlar həkim Səlimovun fürsət tapıb nə isə deyəcəyini səbirsizliklə gözlədilər.

## AT SAHİBSİZ GƏLDİ

Kənd yuxudan oyanmışdı. Hər yerdən qoyun-quzu mələşməsi, bir-birlərini məktəbə səsləyən uşaqların səsi eşidilirdi. Muxtar həmişə bu vaxt atasının yanından qayıdırdı. Ancaq indi hələ gəlib çıxmamışdı. Buna görədir ki, anası Səlmi arvad bərk nigaran qalmışdı. O, tez-tez evə girib-çıxır, həyət qapısına baxır, təlaşla fikirləşirdi. «Yəqin uşağın başında bir iş var!»

Birdən Səlmi arvad dəhşətə gəldi. Kürən at başı ilə alaqarını açıb içəri girdi. Səlmi arvad Muxtarı atın üstündə görməyib qışqırdı:

-Vay başıma xeyir, mənim Muxtarıma nə oldu?!

Səlmi arvadın səsinə qonşuları Sabit, Saat və Muxtarın dostu Aslan gəldilər. Aslan ürəkyananlıqla soruşdu:

-Səlmi xala, nə olub?

-Evim yıxılıb, Kürən Muxtarsız gəlib!

-Ay Səlmi, səbr elə, həşir salma görək,-deyə dünyagörmüş qoca Sabit kişi ona ürək-dirək verdi.- Görünür, at hürküb qaçıb.

Saat arvad da Sabitin sözlərini təsdiq etdi.

-Daha burada nə olacaq ki...

Sabit kişi təmkinlə dedi:

- Gəlin bir küçəyə çıxaq, bəlkə atın haradan gəldiyini görən olub.

Sonra da qəlyanını tüstülədə-tüstülədə qabaqca getdi. Səlmi, Saat və Aslan da onun ardınca həyət qapısına tərəf yollandılar. Bu zaman Sabit kişi nə fikirləşdisə birdən gedib atın cilovundan tutdu və aparıb səkinin altındakı mıxa bağladı. Xurcunu atın üstündə görüb öz-özünə dedi: «Yox, at hürksəydi xurcun da yerə düşərdi».

Sabit kişini fikirli görən Saatla Aslan da başlarını aşağı dikdilər. Bayaqdan onların hərəkətlərinə göz qoyan Səlmi arvad ağlamağına ara vermirdi.

-Ay Səlmi arvad, bəsdir ağladın!-deyə Sabit kişi hirsləndi,-Qoymursan bir fikirləşək görək nə edirik. Ağlamaqla iş düzələr?!

Bayaqdan bəri sakit duran Aslan birdən yuxudan oyanmış kimi:

-Səlmi xala, bu dəqiqə mən Muxtardan xəbər gətirərəm,-dedi,-cəld atı açdı, səkinin altına çəkib mindi.

-Tez ol oğlum, tez ol!-deyə Sabit kişi dilləndi.-Burada oturub səni gözləyirik.

O, keçib qoca qara tut ağacının yerə dirsək vermiş kötüyünün üstündə oturdu.

-Gərək ki, bu ağacın yaşı üç yüz ildən çox ola,- deyə Səlminin başını qatdı.

-Rəhmətlik qayınatan deyərdi ki, bunu mənim atamın babası əkib. Nə, qara tut ağacı çox yaşayır...

Aslanın ata minməsi ilə həyətdən çıxması bir oldu. Dərhal da dolama-dolanbac kənd küçələrində gözdən itdi.

Aslan tez kənddən çıxmaq, rayon mərkəzinin lap başından keçən kəsmə yaylaq yoluna çatmaq üçün atı səslədi. O, gəlib milis idarəsinin yanından ötəndə bir milis nəfəri qışqırdı:

-Ey, balaca, atı hara sürüb aparırsan? Bura gətir!..

Aslan atın cilovunu çəkdi.

-Vacib işim var, evdə məni gözləyirlər,-deyə cavab verdi.

Milis nəfəri hirsləndi:

-Uzun eləmə, dedim sənə gətir özgənin atını bağla ağaca!

-Əmi, özgə kimdir, elə mən onların həyətindən gəlirəm də. Yiyəsi itib ey...

-İtib eləməyib. Bizim milis rəisi ilə gedib. Atı da mənə tarşırıblar. Sən onu haradan açıb minmisən? Aslan özünü itirdi:

-At özü açılıb, həyətə gəlmişdi. Muxtargilin atıdır.

Milis nəfəri daha ciddi səslə dedi:

-Bilmirəm, düş, apar bağla o ağaca.

Oğlan atdan düşdü.

-Bilirsən, əmi, bağlaram, ancaq həyətdə hamı nigarandır, anası ağlayıb özünü öldürür,-deyə o, milis nəfərinə müraciət etdi. Bəlkə icazə verəsən, atla gedim, bu xəbəri onlara çatdırım.

-Yəni deyirsən çox nigarandırlar?-deyə Aslanın söhbətindən yumşalmış milis nəfəri soruşdu, -Yaxşı, bir az gözlə, idarəyə xəbər verim, birlikdə gedək.

Milis nəfərinin bu sözlərindən Aslan sevindi. Bayaqdan kobud görünən bu ucaboy, qalın qara bığları olan adama qarşı onda bir məhəbbət oyandı.

Milis nəfərinin idarəyə girməsi ilə çıxması bir oldu. O, gəlib Kürənin cilovundan tutdu, belinə qalxaraq Aslanı da tərkinə aldı, iri, güclü qıçlarını atın qabırğalarına döyəclədi, Kürən fınxırıb götürüldü. Milis nəfəri soruşdu:

-Murtuzluda olurlar?

-Bəli.

-Nansı küçədə?

-Müşfiq 142-də. Çoban Cəbinin oğludur.

-Cəbinin? Traktorçu Salmanın qardaşının...

-Bəli!..

Onlar Muxtargilə çatanda həyətdə bərk səs-küy var idi. Hərə bir söz danışırdı. Biri deyirdi ki, heyf o uşaqdan. Başqa birisi soruşurdu: «Ay, Səlmi bacı, bu nə işdir, gəlib sənin başına?» .

Həyətə yığışan qonşular Səlmi arvadı daha da çaşdırmışdılar. Hətta onlardan Səlmiyə qoşulub göz yaşı tökənlər də vardı. Aslan bu səhnəni hasarın üstündən milis nəfərinə göstərdi:

-Bir baxın, görün nə edirlər?!.

-Bu arvad tayfasını ovundurmaq çətindir,-deyə milis nəfəri qarının ağzında atdan düşdü.-Əvvəl sən keç, yoxsa məni görüb qorxarlar...

Milis nəfərinin bu təklifi Aslanın lap ürəyindən oldu. O, atdan düşmədən qarını açıb həyətə girdi. Hamı söhbəti kəsib ayağa durdu. Aslan isə elə qarının ağzından qışqırdı:

-Muştuluğumu verin, Muxtar gəlir!..

-Muxtar adını eşidən Səlmi arvad özünu Aslana sarı atdı. Bayaqdan bəri arvadların əlindən hirslənən və kötüyün üstündə tək-tənha oturub heç kimlə danışmayan Sabit kişi də, yaşına xas olmayan bir cəldliklə ayağa durdu:

-Səni xoşxəbər olasan, ay bala,-dedi.

-Bura gəl danış görək bu nə əhvalatdır.

-Həyətə ani olaraq bir sakitlik çökdü. Hamı səbirsizliklə Aslanın söyləyəcəyi xəbəri gözləyirdi.

-Bu saat,-deyə Aslan atdan düşüb, onu çinar ağacının altındakı axurun yanında bağladı.

-Elə bu an milis nəfəri qapını açıb həyətə girdi. Onu görən Aslan ucadan dedi:

-Muxtar haqqında mən yox, bu əmi danışacaq.

-Hamının təəccüb dolu nəzərləri milis nəfərinə zilləndi. Onun çöhrəsindəki təbəssümü görən Səlmi arvad daha dinmədi, sakitcə durub qulaq asmağa başladı. Milis nəfəri səhər Karvan yolunda Muxtarın başına gələn əhvalatı yerli-yerində danışmağa başladı. Aslan da bu fürsətdən istifadə edib cəld atı mindi və yavaşca həyət qapısını açıb çıxırdı ki, Səlmi arvad onu gördü. O, təkcə bu sözləri soruşa bildi:

-Aslan, oğlum, hara gedirsən?

-Aslanın səsi hasarın o tayından gəldi:

-Yaylağa, Cəbi əminin yanına!

## SƏLMİ XALA XOŞ XƏBƏR GƏTİRDİ

Axşamüstü Muxtar həyətdə xalının üzərində, arxası üstə uzanıb nəzərlərini əlçatmaz göyə zilləmişdi. Göy necə də təmiz idi. Tək-tük gərünən ağ pənbə buludlar da hərəkətsiz durmuşdu. Elə bil kimsə onları göyə mıxlamışdı. Hərdənbir, sərin meh əsirdi. Təbiət adama laylay çalırdı. Lakin Muxtar yuxusuz, yorğun olsa da yatmırdı. Onun fikri bir quş olub gah xəstəxanaya, gah da sədaqətli, mehriban dostu-bütün uşaqların «gombul» dediyi Aslanın yanına gedirdi.

-...Aslan yaxşı oğlandır. Dəfələrlə o, çətin anlarda sınanılıb.



O mənim dostumdur. Bəs dost-dosta nə gündə gərək olar? Mən onun yolunda ölümə belə hazıram...

Muxtarı bu fikirdən at fınxırtısı ayırdı. O heç dönüb baxmadan Kürənin səsini tanıdı. Həyət qapısı açıldı, Aslan gəldi. Həyətə girən kimi dedi:

-Muxtar, yaralı necə oldu? Muxtar dinmədi. Bərk-bərk Aslanı qucaqladı.

Aslan onu süzdü. Muxtarın həmişə şən olan girdə qara gözlərində yaş damlaları gördü. Muxtarın dərin həyəcan içərisində dediyi sözlər Aslanın iliklə-rinə qədər işlədi. Aslan... beş dəqiqə tez getsəydim, ölməzdim...

Ölüm sözünü eşidən Aslan sustaldı. Qanı bərk qaraldı. O, heç bir söz demədən keçib səkinin üstündə oturdu. İki əli ilə başını tutaraq fikrə getdi.

Muxtar da gəlib onun yanında əyləşdi. Bir müddət onlardan heç biri dinmədi. Sonra Aslan soruşdu:

- Muxtar, bəs professor ona baxmadı?

- Baxdı.

- Kömək eləyə bilmədi?

- Axı professor onun üçün nə eləsin. Xəstəxanaya çatmağa iki dəqiqə qalmış öldü.

Yenə aralığa sükut çökdü. Lakin bu sükutu qonşudan gələn Səlmi xalanın səsi pozdu:

- Can bala, yaylaqdan qayıtmısan?-deyə o, Aslana müraciət etdi.-Cəbi əmin necədir?

-Yaxşıdır,-deyə Aslan cavab verdi.-Dedi ki, sabah gələcəyəm.

- Bəs niyə belə qəm dəryasına batmısız?

Nə Aslan, nə də Muxtar danışmadı. Bunu görən Səlmi xala əlavə etdi:

-Deyirlər yaralı ölməyib. Professor ona qan vurub, dirilib.

Muxtar bu xəbəri eşidən kimi sevinərək anasının boynuna sarıldı. Sonra da cəld səkidən aşağı tullandı.

-Aslan, gözlə! İndi gəlirəm!-deyib birbaş xəstəxanaya qaçdı.

Muxtar həyət qapısından çıxanda Aslanı da yanında gördü. Onlar xəstəxanaya qədər birlikdə yüyürdülər.

## XƏSTƏXANA BAĞINDA SÖHBƏT

Xəstəxana bağındakı skamyalarda adamlar iki-bir, üç-bir oturub şirin-şirin söhbət edirdilər. Onlar iki balaca oğlanın qaça-qaça, təlaşla bağa girdiyini görüb təəccübləndilər. Bir nəfər kök kişi ucadan soruşdu:

-Ay uşaqlar, kimi istəyirsiniz? Həmin kişi ağ xalat geymiş, başına ağdan tikilmiş papaq qoymuşdu. Muxtar onu görən kimi cəld:

-Yoldaş həkim,-dedi.

-Səhər gələn yaralı necə oldu, bilmirsiniz?

Kök kişinin dodaqları qaçdı. Özünü gülməkdən güclə saxlayıb dedi:

-Səhərki xəstəni deyirsiniz? Çox yaxşıdır. Professor Tərlanovun əllərinə qurban olum. Mən də elə indi xəstələrə ondan danışırdım. Muxtar tələsik əlavə etdi:

-Mən dağ yolundakı yaralını deyirəm, ey!..

-Bilirəm, bilirəm,-deyə kök kişi cavab verdi. Sonra nəsə danışmaq istəyirdi ki, yaxınlıqdakı evin pəncərəsindən cır bir qadın səsi eşidildi.

-Ay Paşa dayı, xörək yanır, tez gəl!

-Bu saat, bu saat,-deyə kök kişi dilləndi.

-Bax, yaxşısını o gələn həkimdən soruşun. Mən xörəklərin həkimiyəm, gedim, görüm nə var!

Muxtar və Aslan yalnız bu zaman bildilər ki, «yoldaş həkim» deyəndə kök kişi nə üçün gülümsündü.

-Demək o, aşpaz imiş?-deyə Aslan soruşdu.

-Aşpaz da olsa çox dilli kişidir,-deyə Muxtar cavab verdi.

-Ondan yaman xoşum gəldi.

Bu zaman həkim gəlib onların yanından keçəndə Muxtar onu tanıdı. Bu, səhər Muxtarı bağrına basıb ovunduran qadın idi. Həkim də Muxtarı tanıdı, gülə-gülə soruşdu:

-Yenə gəlmisən? Bu oğlan kimdir, yoldaşındır?

Muxtar sualların heç birinə cavab vermədən dedi:

-Xala, yaralı necədir?

Muxtargil onun cavabını intizarla gözlədilər.

-Yaralı yaxşıdır, gedin dincəlin.

-Axı dedilər...

-Nə dedilər?-deyə həkim diqqətlə Aslanı süzdü.

Ani sükutdan istifadə edən Muxtar əlavə etdi:

-Dedilər yaralı ölüb.

-Doğrudur, ölmüşdü,-deyə həkim cavab verdi,-Xəstəxanaya gətirəndə üç dəqiqə idi ki, ölmüşdü.

-Bəs necə oldu dirildi?-deyə Aslan soruşdu.

-Görünür siz professor Tərlanov haqda oxumamısınız, hə?!

-Yox,-deyə Muxtar və Aslan birlikdə cavab verdilər. Onlar, budaqları yerə dəyən paprız söyüdün altında güclə görünən skamyada oturdular.

-Bizim Tərlanov məşhur professorlardandır,- deyə həkim onları başa saldı.

-O, çoxlu adama can verib. Böyük Vətən müharibəsi cəbhələrində yaralanıb qan itirən yüzlərlə adamı həyata qaytarıb. İndi həmin adamlardan ona hər gün məktub gəlir.

-Mən onun əllərini öpərəm,-deyə Muxtar dilləndi.

Aslan udqunub:

-Mən də,-dedi,-Bir gör necə professordur ey!

-Əlbəttə!-deyə həkim onun Sözünü təsdiq etdi.

Bu vaxt Muxtar özünü saxlaya bilməyib sevinclə dedi:

-Çox sağ olsun professor!

-Yaxşı,-deyə həkim əlavə etdi,-Gedin evə, dərslərinizi hazırlayın.

-Bəs yaralını görmək olmaz?

-Yox, professor tarşırıb ki, bir neçə gün onun yanına heç kimi buraxmayın. Yaxşı olan kimi biz səni çağırtdıracağıq,-deyə həkim üzünü Muxtara tutdu.-Yəqin ki, o da səni görmək istər.

Muxtar və Aslan bir an susdular. Onlar getmək istəmirdilər. Burada oturub professor haqqında, onun gördüyü böyük işlər haqqında söhbətə qulaq asmaq istəyirdilər. Ancaq bu mümkün deyildi. Həkimin vaxtı azdı, cəmi beş dəqiqəliyə tənəffüsə çıxmışdı, odur ki, həkim ayağa durub dedi:

-Di gedin! Sağ olun!

-Sağ olun!

-Sağ olun!

Muxtar və Aslan həkimlə xudahafizləşib ayrıldılar. Onlar xəstəxana bağından çıxsalar da ürəkləri burada qaldı. Adamlardan ayrılan kimi Aslan qolunu Muxtarın boynuna saldı.

-Gördün həkim nə dedi?

-Hansını deyirsən?

-Eşitmədin, yaralı sağalan kimi səni çağırtdıracağıq!

«Səni çağırtdıracağıq!»

Muxtar da, onun səmimi, mehriban dostu Aslan da yol boyu bu haqda fikirləşir, şad halda evlərinə gedirdilər.

## ÜMİD PROFESSORA QALMIŞDI

Yaralının tapılması hadisəsi hamıdan çox milis rəisi İsrafilovun qanını qaraltmışdı. Hələ üstəlik rayon partiya komitəsinin katibi Zamanov da onu çağırıb demişdi:

-Mən heç nə bilmirəm. Üç günə qədər bu cinayət açılmalıdır.

İndi xəstə səkkiz gün idi ki, huşsuz yatırdı. Bu müddətdə o, yalnız bir dəfə gözlərini açıb baxmış və yenə də yummuşdu. İsrafilov elə zənn edirdi ki, xəstə ayılar, cinayət də tezliklə açılar. Ancaq bunların heç biri olmadı. Həkimlərin bütün səylərinə baxmayaraq xəstənin vəziyyəti gündən-günə pisləşirdi. Hər gün İsrafilov professora zəng vurub xəstənin halını xəbər alırdı. Xəstənin vəziyyəti yaxşı olduqda rəis gülüb-danışır, pisləşdikdə qanı qaralırdı. O, bütün milis idarəsini ayağa qaldırmış, Rayon Rartiya Komitəsinin katibi Zamanovun sözlərini təkrar edərək demişdi:

-Ya bu gün, ya sabah cinayətin izini tapmalıyıq. Vəssalam!

İsrafilovun nə gecəsi vardı, nə gündüzü. O, tez-tez qonşu rayon milis idarələrinə, Bakıya zəng vurub vəziyyəti öyrənirdi. Lakin heç bir müsbət xəbər çıxmırdı. Elə bil bu adam göydən düşmüşdü. Yerdə bir adamı yox idi. İsrafilov hirslənib deyirdi:

-A kişi, bunun cibində sənədi də yoxdur ki, haradan gəlib-getdiyini, kim olduğunu bilək. Özü də ayılmır ki, ayılmır...

İsrafilovun şoferi Namazov da bərk dilxor idi. Bir adam onunla görüşüb söhbət edəndə «Ay Namaz, kefin necədir?» soruşanda Namazovun da dərdi açılır, giley-güzara başlayırdı:

- Vallah, ay qardaş bilmirəm bu bəla bizim rayona hardan gəlib düşdü. Nə gecəm var, nə də gündüzüm. Bu kənd mənim, o kənd sənin gəzirik. Adamın da nə baş bileti var, nə də ad-familiyasını bilirlər. İndi tap görüm necə tapırsan.

...Axtarışlar heç bir nəticə vermirdi. Ümid professora qalmışdı: «Bircə yaralını tez sağaldaydı!»...

## QOÇAQ MUXTAR

Həmin gün Muxtar dərsə gedə bilmədi. Buna görə ertəsi gün məktəbdə ona heç kim bir söz demədi. Məktəb direktoru və müəllimlər əhvalatdan xəbərdar idilər. Uşaqlar isə onu təngə gətirirdilər. Məktəb həyətindən keçəndə onu ilk dəfə Şamil görüb qışqırdı:

-Uşaqlar, Muxtar gəlir!-Sonra da yüyürüb onu qucaqladı və dedi:

-Salam, ay Muxtar, malades sənə! Qorxmadın?

-Nədən qorxurdum.

Başqa uşaqlar da qaçıb gəldilər, onlar yerbəyerdən suallar yağdırırdılar:

-Muxtar, kim olduğunu bilmədin?

-Yox tanımadım.

-Cavandır?

-Bəli.

-Bəlkə bizim rayondandır?

-Bizim rayondan olsaydı, İsrafilov tanıyardı.

Cingiltili zəng səsi uşaqların söhbətini kəsdi. Hamı siniflərə axışdı. Bu, Muxtarın ürəyindən oldu. Yoxsa hərə bir söz soruşacaqdı. Söhbət təzələndikcə Muxtarın qanı qaralır, dağ yolu, yaralının qanlı, saralmış bənizi gəlib gözləri qarşısında dururdu. «Bəlkə indi onun uşaqları atalarının yolunu gözləyirlər. Bu gün, bu saat gələr deyə özlərinə təsəlli verirlər. Lakin onlar bilmirlər ki, ataları xəstəxanada yatır. Onun həyatı təhlükə qarşısındadır».

Muxtar birinci dərsdə nə qədər çalışdısa bu düşüncələrdən yaxa qurtara bilmədi. Elə bil kimsə bu sözləri onun beyninə həkk etmişdi. Dünyada bunlardan başqa söz yoxdur. Bir tərəfdən də ona elə gəlirdi ki, beyninin üstünü nazik bir təbəqə örtür, özü də get-gedə qalınlaşırdı. Artıq indi o, nə müəllimin söhbətini, nə də uşaqların danışığını eşitmirdi. Qoz mis qaba dəyib səs çıxardığı kimi, söz də onun başına dəyib taqqıldayırdı. Muxtara elə gəlirdi ki, bu saat onun beyni tormozlaşacaq, heç bir söz eşitməyib yatacaqdır. Lakin birdən müəllimin:

-Muxtar, elə deyilmi?-soruşması onu fikirdən ayıltdı. Səhərdən onu yoran düşüncələr sanki bir quş olub uçdu.

Uşaqlar tənəffüsə çıxdılar. Muxtar yerindən tərpənmədi. Bu vaxt Şamil sinif qapısını açıb:

-Muxtar,-dedi,-pioner baş dəstə rəhbəri səni çağırır.

-Muxtar pioner otağına gələndə hər şey onun üçün aydın oldu. Məktəb futbol komandasının bütün üzvləri burada idilər. Demək, yarış keçiriləcəkdi.

Belə də oldu. Pioner baş dəstə rəhbəri Muxtarı görən kimi:

-Hazırlaş, sabah Səmədabada, futbola gedirik. Gərək onları udaq,-dedi.

-Əlbəttə, Muxtar olan yerdə bizi heç kim uda bilməz,-deyə idman müəllimi əlavə etdi.

Uşaqlar da onun sözünə şərik çıxdılar. Muxtar istədi desin ki, mən getmək istəmirəm. Amma yoldaşlarının bu inamı qarşısında cəsarət etmədi. Könülsüz halda:

-Yaxşı, gedərəm,-dedi.

## UŞAQLARIN KƏLƏYİ

Muxtar səhər göyün üzünü örtən sıx buludları görəndə sevindi. «Yaxşı oldu,-dedi. -Yağış yağacaq. Yağış yağsa futbol olmaz. Onsuz da həvəsim yoxdur».

O, bu fikirdə idi ki, birdən hardasa ildırım çaxdı, göyün canına lərzə düşdü. Güclü işıq onun gözlərini qamaşdırdı. O, ani olaraq gözlərini yumdu. Sonra yenə lap ənginliklərdə çalın-çarpaz işıqlar göründü. Səs isə gurhagurla uzaqlaşdı. Elə bil gedib haradasa dənizə düşdü, sulara qərq oldu.

Ancaq sel getsə də, evləri, adamları aparsa da Muxtar məktəbə getməli idi. O, yoldaşlarına söz vermişdi. Odur ki, Muxtar əmisinin köhnə plaşını başına atıb evdən çıxdı. Yağış elə bil navalçalardan onun başına tökülürdü. Amma plaşın üstündən sivişib şırhaşırla yerə axırdı. İldırım da ara vermədən səslənirdi. «Bax belə. Çax-çax!»-deyərək Muxtar cəld addımlarla gedirdi. O, gəlib Şamilgilin qapısının ağzından keçəndə dostunu səslədi:

-Şamil! Şamil!

-Şamilin balaca qardaşı Səttar hasarın o tayından qışqırdı:

-Muxtar, Şamil gedib!

-Hara?

-Futbola...

-Çoxdan?

-Yox, indi.

Muxtar məktəb həyətinə çatanda heç kimi görməyib təəccübləndi: «Bir bunlara bax, yağışdan qorxub gəlməyiblər». Sonra Şamil yadına düşdü. «Yaxşı, bəs Şamil hanı?»-deyə fikirləşdi. O, gəlib məktəb qapısını itələdi.

Qapı açılmadı. Keçib səkinin üstündə oturdu. Əlləri ilə qıçlarını qucaqladı. Necə də yaxşı yer idi. Yuxarıdakı artırma bura bir damcı su belə buraxmırdı. Bir qarış ondan uzağa leysan yağırdı. Gör yağışın necə gözəl səsi var. Bəlkə bu səs suların nəğməlidir.

Xəyal, quş qanadlı xəyal Muxtarı qoynuna alıb apardı. Ağacların yarpaqları bir-birinə dəyib pıçıldaşır, quşlar nəğmə oxuyur. Eh, həyatda hər şeyin mahnısı var. Lal daş da oxuyur. Ancaq hamısından yaxşı insan səsidir. Bülbül də onun yanında yalandır.

Birdən kimsə onun gözlərini tutdu.

-Şamil!-deyə Muxtar səsləndi.

Heç bir səs çıxmadı. Həmin adam Muxtarın gözlərini daha bərk sıxdı. Muxtar nə qədər çalışdısa gözlərini tutanı tapa bilmədi. Bir-bir futbol komandasının üzvlərinin adını saymağa başladı.

-Cabir!.. Kamil!.. Səlim!..

Lakin nədənsə Aslanın adı Muxtarın yadına düşmürdü. Aslan da bu fürsətdən istifadə edib, əllərini onun gözlərindən çəkmirdi. Hər dəfə Muxtar səhv bir ad deyəndə dövrəsindəki uşaqlar xısın-xısın gülürdülər. Muxtar dartınıb çıxa bilərdi. Ancaq o, bunu namərdlik sayırdı. Gərək oyunun qaydasına əməl edəsən.

Muxtar:

-Aha, indi mən sənin kim olduğunu bilərəm,-deyib qollarını dala qatladı, gözünü tutanı qıdıqlamağa başladı. Həmin oğlan səsini belə çıxarmadı. Muxtar da onu tanıdı. Buna görə də inamla dedi:

-Aslan!

Aslan əllərini çəkdi. Muxtar gözünü açarkən bütün uşaqları dövrəsində gördü.

-Ay biçənkələr,-dedi,-Qaçıb gizlənmişdiniz, hə? Elə bildiniz başa düşmədim?!

Uşaqlar gülüşdülər. Sakit olan kimi Muxtar dedi:

-Görürsünüz də necə yağır. Məncə daha kəsməz. Getməyək, zəng vuraq ki, xoş gündə gələrik:

-Nə üçün getməyək. Yağış kəsəcək,-deyə Cabir dilləndi.-Atam canı radiodan eşitmişəm.

-Mən də, - deyə Kamil onun sözünü təsdiq etdi-Bax, bu qulaqlarımla. Laləzar olacaq!

-Yaxşı, yaxşı,-deyə Muxtar razılığını bildirdi. Sonra da soruşdu:-Bəs Şamil hanı?-Cavabı gözləmədən də əlavə etdi.-Axı qardaşı dedi ki, gedib.

-İndi gələr,-deyə uşaqların qaradinməz kimi tanıdığı Səlim söhbətə qoşuldu.-MTS-ə benzin üçün gedib.

Muxtar dedi:

-Benzin bizim nəyimizə lazımdır?

-Maşın üçün,-deyə Aslan hər sözü ona yerli yerində danışmağa başladı.-Bəs necə, Səmədabada piyada getməyəcəyik ki?!.

-Maşını kim sürəcək? Axı istirahət günüdür. Heç əmək müəllimimiz evdə də olmaz. Başqa adamın da pravası yoxdur.

Hamı duruxdu, peşmançılıqla bir-birinin üzünə baxdı.

-Əlbəttə, olmaz,-deyə Muxtar qəti fikrini bildirdi.

Bayaqdan başını qaşıyan və fikirləşən Kamil:

-Uşaqlar, tapdım! Tapdım!-deyə sağ əlini havada yellədərək qışqırdı.

-Gəlin maşının üstünə yazaq: «Uçebnıy», idman müəllimimiz də otursun kabinədə. Şamil sürsün. Kim biləcək. Milis işçiləri deyəcək ki, yəqin avtoməktəbin maşınıdır, imtahan götürür:

-Afərin!-deyə uşaqlar Kamilin fikrini bəyəndilər.

Təkcə Muxtar etiraz etdi:

-Qorxuram, xatası çıxar,-dedi.

-Eh, sənə nə var, biz eləyirik də,-deyə Cabir kəkələdi.

Bu ara pioner baş dəstə rəhbəri Elmira da gəlib çıxdı. Uşaqlar söhbəti kəsdilər. Aslan aralığa söz saldı:

-Yoldaş Elmira, idman müəllimimiz gəlməyəcək?

-Yox, bərk xəstələnib.

-Siz gedəcəksiniz?

-Bəli, istəmirsiniz?

Hamı pərt oldu. Uşaqların bayaqdan bəri fikirləşib tapdıqları tədbir puça çıxdı. Səlim Kamilə göz vurdu. «Nə edək?» Kamil onun ürəyindən keçəni duydu. Lakin heç bir söz deməyib, çiyinlərini dartdı. Demək istəyirdi ki, nə bilim.

Bayaqdan gülüb-danışan, səsləri həyəti başına götürən uşaqların üstünə elə bil su ələndi. Heç kim danışmadı. Pioner baş dəstə rəhbəri elə bildi ki, uşaqlar idman müəlliminin olmadığına görə pərtdirlər. Odur ki, uşaqlara ürək-dirək verdi.

-Siz hərəniz bir müəllimsiniz,- Nə olar, İbad müəllim olmayanda...

-Yox, ona görə...

Kamil nə isə demək istəyirdi ki, Aslan onun ayağını basdı. O daha heç bir söz demədi.

-Bəs nəyə görə?-deyə Elmira soruşdu.

Hamı susdu. O, sözünə davam etdi:

-Gör hava necə açıldı.

Doğrudan da, yarım saat bundan əvvəlki havadan əsər-əlamət qalmamışdı. Gün çıxmışdı. Bir azdan bürkü olacaqdı.

-Gəlin yola çıxaq, maşına minib gedək, vaxtdır, saat on birə ancaq çatarıq.

Uşaqların susduğunu görən Muxtar dedi:

-Yoldaş Elmira, axı Şamil gəlməyib.

-Şamilə nə olub? Niyə indiyəcən gəlməyib?

-MTS-ə gedib.

-Nə üçün?

-Niyə cavab vermirsən?

Muxtar başını yuxarı qaldırmadan:

-Deyirlər benzin üçün gedib.

Elmira hər şeyi başa düşdü.

-Yox, uşaqlar,-dedi.-Öz maşınımızla gedə bilməyəcəyik. Yolda mən sizin üçün maşın taparam.

-Öz maşınımızda getmək istəyirik,-deyə Kamil narazılığını bildirdi.

Bir neçə uşaq da əlavə etdi:

-Düz deyir.

Bu zaman uzaqdan Şamilin cır səsi eşidildi.

-Uşaqlar, hər iş düzəlib!..

Şamil əlində vedrə onlara sarı gəlirdi. Bunu görən Səlim və Cabir onun köməyinə qaçdılar.

İndi ancaq Elmiranı yola gətirmək lazım idi. Şamil özü əla maşın sürürdü. Bunu o, atasından öyrənmişdi. Onun atası avtoməktəbdə müəllimlik edirdi.

Uşaqlar yerbəyerdən səsləndilər:

-Yoldaş Elmira, qoyun maşınla gedək də. Heç kim bizə bir söz deməz.

Uşaqların yalvarışları Elmiranın ürəyini yumşaltdı. O, ani sükutdan sonra:

-Yaxşı,-dedi.-Onda Şamil mən deyən kimi sürəcək, yavaş-yavaş.

Hamı sevindi. Yenə məktəb həyatində əvvəlki şənlik hökm sürdü. Uşaqlar atılıb düşdülər. «Ay can, ay can maşınla gedirik,»-deyə qışqırdılar. Şamil isə hərbi qaydada tə'zim edərək məktəb qarajına yüyürdü. Çox çəkmədi ki, maşını dalı-dalı verib qarajdan çıxartdı. Hamı səs-küylə maşının kuzovuna doluşdu. Elmira da kabinədə oturdu. Ancaq Kamillə Aslan qarajın qapısını bağlamaq bəhanəsi ilə maşına minmədilər. Kamil qapının ağzına çatanda:

-Şamil-deyə ucadan qışqırdı.-Bu qapı bağlanmır.

Şamil sükanı dartdı. Kabinədən düşəndə Aslan ona pıçıldadı:

-Nə zonnı gedirsən? Bir az həyətdə yuban, biz maşının yanına «uçebnıy» sözünü yazaq. Nömrəsiz olsa yolda bizi tutarlar.

-Paho, az qala yaddan çıxarmışdım,-deyə Şamil səsləndi.-Özü də belə gözəl ideyanı. O, uşaqlarla köməkləşib qapını bağladı və cəld geri döndü, maşına minib sürdü. Ağ tüstü həyəti bürüdü. O, azca sürüb maşını saxladı. Elmira soruşdu:

-Nə üçün saxladın?

Şamil özünü itirmədən dedi:

-Qoy bir az motor qızsın.

Sonra başını kabinədən çıxarıb soruşdu:

-Hamı minib?

Cabir dedi:

-Bəli, sür.

Maşın yola düşdü. İndi hər kəs, uzaqdan belə baxsaydı, maşının yanlarına yazılan «uçebnıy» sözünu asanlıqla oxuya bilərdi.

Maşın kənddən aralandıqca uşaqların da həyəcanı artırdı. Çünki, asfalt yolun qırağındakı budka buradan aydınca seçilirdi. Budkada milis işçiləri durur, yol qaydalarını pozan, gözə şübhəli görünən maşınları saxlatdırıb yoxlayırdılar. Uşaqların hamısı düşünürdü:

-Bir burdan keçə bilsə idik!

Bayaqdan gülüb-danışan, səsləri, şən gülüşləri çölləri başına götürən uşaqlar susmuşdular. Hamı nəzərini qarşıda ağaran budkaya zilləmişdi.

Birdən Şamil başını kabinədən çıxarıb:

-Uşaqlar, budkada heç kim yoxdur,-dedi.- Möhkəm dayanın bərk sürəcəyəm. Siz də mahnı oxuyun.

Şamilin sözü elə bil uşaqları yuxudan oyatdı. Aslan cəld dedi:

-Ə, nə olub sizə, ağzınıza su almısınız? Başlayın.

-Nə oxuyaq?-deyə Kamil soruşdu.

Üç-dörd uşaq yerbəyerdən:

-«Azərbaycan» mahnısını,-dedi.

Hamı mahnı oxumağa başladı. Uşaqların şən səsi təmiz dağ mehinə qarışıb uzaqlara yayıldı. Budkanın yanında heç kimin olmaması uşaqları bir qədər sakit etmişdi. Lakin otuz-qırx addım qalmış budkadan bir milis işçisi çıxıb həyətdəki skamyada oturdu. Maşın bir az yavaşıdı. Milis nəfəri yenidən

budkaya getdi. Bu zaman Şamil sür'əti artırdı. Maşın budkanın qabağından üzüaşağı güllə kimi getdi. Tələsik geri dönən milis nəfəri bir əlini gözünün üstünə qoyub maşının dalınca xeyli baxdı. Sonra keçib skamyada oturdu.

Aslan dedi:

-Yaxşı qurtardıq.

Muxtar dedi:

-Kişi bizə çox şübhəli-şübhəli baxdı.

-Heç nə başa düşmədi,-deyə başqa birisi əlavə etdi.

Onlar bir az getdikdən sonra asfaltdan çıxıb torpaq yola düşdülər. Bu yol onları düz Səmədabada apardı.

## KİTABDA LƏKƏLƏR VARDI

Maşın kəndin girəcəyinə çatanda çəmənlikdə uzanmış üç uşaq ayağa qalxdı. Boyca onlardan hündür olan oğlan kepkasını çıxarıb havada yellədi. Sonra da var gücü ilə qışqırdı:

- Maşını burdan sürün, o tərəf palçıqdır!

Şamil onu tanıdı:

-Qabaq futbol komandasının hücumçusu idi,-deyə Elmiraya nişan verdi.

Muxtar da özünü saxlaya bilməyib, var gücü ilə qışqırdı:

-Qambay, salam!

-Salam!

Şamil maşını yavaşıtdı. Qonaqları qarşılayanlar cəld maşına mindilər. Kabinədən tutub duran Nadir:

-Düz yolla sür,-dedi.

...Məktəb həyətində böyük şənlik oldu. Klarnet çalan balaca, kök oğlanın ordları şişdikcə, nağara vuranın nazik, çubuq barmaqları qızardıqca musiqi səsi daha uzağa gedirdi. Sanki, bu gün Səmədabadda bayram idi. Qırmızı parça üzərində yazılmışdı: «Murtuzlu dostlara salam!» Uşaqlar maşından

düşüb məktəb həyətində yaşıl otların üzərinə sərildilər. Hərə öz dostu ilə söhbətə başladı. Lakin Muxtarın xoş çobanyastığı qoxusu gələn bu çəmənlikdə uzanmağa həvəsi gəlmədi. Səmədabadlı dostuna:

-Qambay, gəl bir az gəzək,-dedi.-Qabaq quzu otaranda tez-tez görüşürdük. İndi ayda, ildə bir dəfə rastlaşırıq.

-Doğrudan, Muxtar, səni daha çöldə görmürəm, bəs quzuların hanı?

-Quzular yaylaqdadır.

-Cəbi əminin yanında, hə?

-Hə.

-Nə üçün belə bikefsən?-deyə Qambay soruşdu.

-Bilirsən, Qambay, bu günlərdə dağ yolunda bir yaralı görmüşəm. Heç fikri başımdan çıxmır.

-Yaralı?-deyə Qambay təəccüblə soruşdu.-Necə olub yaralanıb?

-Maşından yıxılıb.

-Necədir?

-Xəstəxanada yatır.

Muxtar bu sirli hadisəni Qambaya yerli-yerində danışdı. Söhbət hər iki dostu o qədər götürdü ki, onlar məktəb həyətindən uzaqlaşdıqlarını belə bilmədilər.

Birdən Qambay barmağını dişlədi.

-Muxtar,-dedi.-Bir neçə gün bundan qabaq bir kitab tarmışam. Bəlkə onunla əlaqədardır.

-Hardan tapmısan?

-Karvan keçidindəki Böyükdağın ətəyindən.

-Nə vaxt?

-Lap səhər tezdən,-deyə Qambay danışmağa başladı:

-Quzular xırraxırla otlayırdı. Mən də yaxınlıqdakı dərədə arxası üstə uzanmışdım. Səhər yeli lay-lay çalırdı. Mən mürgüləyirdim. Birdən tappıltı ilə yanıma duşən bir şey məni diksindirdi. Cəld ayağa durdum. Kitab idi. Oyan-buyana baxırdım ki, bir maşın dağ yolundan sürətlə keçdi. Mən bu hadisədən şübhələndim. Görən bu kitabı nə üçün dərəyə atdılar?

Bayaqdan bəri Qambayı dinləyən Muxtar özünü saxlaya bilməyib soruşdu:

-Nömrəsini yazmadın?

-Ağacla qumun üstünə yazdım.

-Heç yadında qalmayıb?

-Otuz üç... otuz üç... yox, yadımda deyil.

-Qambay, o kitabda nəsə var. Ver onu milis idarəsinə aparım. Bəlkə cinayətin açılmasında onun köməyi oldu.

-Hansı cinayətin?

-Sənə danışmadım? O adam maşından yıxılıb. Ancaq, heç kim bilmir ki, hansı maşından yıxılıb. Özü də huşsuz yatır.

-Başa düşdüm, gedək verim. Bəs sən futbol oynamayacaqsan?

-Yox, mən milis rəisinin yanına gedirəm. Tez ol, yüyür, kitabı gətir!

Qambay cəld evlərinə qaçdı. Kitabı götürüb diqqətlə baxdı, gözlərinə inanmadı. Elə bil kimsə barmaqlarını qırmızı rəngə salıb kitaba basmışdı. «Bu nə sirdir?» deyə o, düşündü. Sonra dedi: «Bəlkə kitabın öz rəngidir çıxıb».

...Qambay tində görünəndə kitabı başının üzərinə qaldırıb Muxtara göstərdi:

-Budur ey.

Muxtar kitabı alıb diqqətlə baxdı. Qırmızı ləkələr onun də nəzərini cəlb etdi.

-Qambay,-dedi,-Bəs bu ləkələr nədir?

-Məni də şübhələndirir. Əgər burada bir şey yoxsa nə üçün şofer onu dərəyə atdı?

-Əlbəttə,-deyə Muxtar onun sözünü təsdiq etdi,- Özü də ləkələr qan ləkəsinə oxşayır. Mən daha dayana bilmərəm, getdim!

Muxtar gedərkən Qambay arxasınca səsləndi:

-Bəs uşaqlar nigaran olmaz?

-Yoldaş Elmiraya de ki, Muxtar milis şöbəsinə getdi.

## HAMININ QANI QARA İDİ

Qambay məktəb stadionuna çatanda ağız deyəni qulaq eşitmirdi. Balaca futbol azarkeşlərinin səsi aləmi basmışdı. O, güclə uşaqların arasından keçib qabağa çıxdı. Qara taxta üzərində yazılmış bu sözləri oxudu:

«Murtuzlu-1. Səmədabad-4».

Səmədabad futbolçuları qonaqları yaman sıxışdırmışdılar. Onlar həmişə cəld, ağıllı oynayan, gözəl fəndlər işlədən Muxtarın burada olmadığından bacarıqla istifadə etmişdilər. Bir tərəfdən də Murtuzlu komandası arasına nə isə bir çaxnaşma düşmüşdü. Muxtarın oyunu qoyub getməsi uşaqlara təsir etmişdi. Bu da rəqiblərin xeyrinə olmuşdu. Yoxsa səmədabadlı uşaqlar heç vaxt murtuzluları belə uda bilməzdilər.

Qambay bərk sevinirdi. Zarafat deyil. Onlar ən yaxşı komandaya qalib gəlirdilər.

Birdən stadion təlatümə gəldi.

-Ələkbər, tez ol vur! Tez ol!

Ələkbər səmədabadlıların ən yaxşı oyunçusu idi. O, bir neçə rəqibini aldadıb qabağa çıxmışdı. Topu murtuzluların qapısına vurmaq istəyirdi ki, birdən hakimin fiti eşidildi. Oyun qurtardı.

Qambay cəld yüyürüb Elmiranı tapdı.

-Yoldaş Elmira, Muxtar rayon mərkəzinə getdi.

Elmira heç Qambayın üzünə də baxmadı:

-Eybi yoxdur, qoy getsin,-dedi.

Qambay Elmiranın hərəkətindən və dediyi sözlərdən hər şeyi başa düşdü. Elmira müəllimlərlə, onları yola salan uşaqlarla görüşəndə hirsini büruzə verməməyə çalışdı. Ancaq bacarmadı. Hətta uşaqların da üstünə qışqırdı:

-Tez olun, maşına yığışın, gedək,-dedi.

Gənc futbolçulardan çoxu heç formasını dəyişmədən maşına mindi. Hamının qanı qara idi.

## MAŞIN BURAXILDI

Uşaqlar yol boyu oyunu müzakirə etdilər. Hamı təqsiri Muxtarın boynuna yıxırdı.

-Heç mərkəz hücumçusuz da oynamaq olar?-deyə Kamil hiyləgər-hiyləgər soruşdu.

-Bəlkə mən bilmirəm, hə?

-Yox, biz hamımız pis oynadıq,-deyə Aslan cavab verdi.-Nə üçün belə danışırsınız. Bizi arxayınçılıq uduzdurdu. Muxtarda nə günah?

-Muxtar oyunu qoyub getdi, bu günah deyil?-deyə Cabir acıqlandı.

-Onu de, dilinə qurban olum. Heç birimizi də saymadı, buna sözüm yox. Bəs məktəbimizin şərəfi?-deyə Səlim aranı qızışdırırdı.

-Bura yeri deyil, məktəbdə danışarıq,-deyə Hüseyn dilləndi.

-Əlbəttə!- deyə bir neçə uşaq səsləndi. - Bu işi başlı-başına buraxmaq olmaz.

Maşın asfalt yola çıxanda Şamil kabinədən başını çıxarıb qışqırdı:

-Uşaqlar, Elmira deyir mahnı oxusunlar.

Bayaqdan bəri sakit oturan və uşaqlara baxan Aslan fursətdən istifadə edib ayağa durdu:

-Gəlin valı dəyişdirək-dedi-Mən dirijorluq eləyəcəyəm. Hazırlaşın. Bir...iki...

-Nə oxuyaq?-deyə yerlərdən səslər eşidildi.

-Nə deyirsiniz oxuyaq.

Sonra birdən uşaqlar:

-Hələ budkaya çox var. Əvvəl bir sən «Artıqdır» mahnısını oxu,-dedilər.

Aslan bu sifarişi məmnuniyyətlə qəbul etdi. Təki uşaqlar Muxtar haqda danışmasınlar. Axı, Muxtar haqda deyilən hər bir acı söz onun qəlbinə toxunur. Muxtar onun dostudur. Özü də yaxşı, etibarlı oğlandır. Əgər oyunu

yarımçıq qoyub gedibsə demək burada nə isə var. Cabir əlindəki ağacı Aslana uzatdı.

-Al, bu da saz!

Aslan boğazını arıtladı. Bir neçə məzhəkəli hərəkət etdi, oxumağa başladı:

Baş aşağı gələn dilbər, boyun çinardan artıqdır.
Dodağın qarpız qabığı, burnun xiyardan artıqdır.
Şana-şana barmaqların, kərki-kərki dırnaqların.
Kündə kimi ayaqların, xırmanda vəldən artıqdır...

Aslan oxuduqca uşaqlar özlərini saxlaya bilməyib gülürdülər. Hətta, bayaqdan çox qanı qara, dilxor olan uşaqların da istər-istəməz dodaqları qaçırdı. Elə Aslana da bu lazım idi.

Mahnı qurtaran kimi uşaqlar əl çaldılar. Aslan onları sakitləşdirdi.

-Budkaya az qalır,-dedi.-Gəlin bir mahnı oxuyaq!

-Oxuyaq!

-Nəyi oxuyaq?

Uşaqlar müvazinətlərini saxlaya bilməyib bir-birlərinin üstünə yıxıldılar. Bununla da mahnı kəsildi. Bayaqdan dirijorluq edən və həvəslə oxuyan Aslanın da boğazı qurudu. Heç kim danışmadı. Elə bil kuzovda adam yox idi, mahnı oxuyan da heç bunlar deyilmiş.

Milis nəfərinin səsi uşaqların qulaqlarında cingildədi.

-Yol vərəqəsini göstər görüm!

-Yol vərəqəsini?..

Uşaqlar Şamilin səsində bir titrəyiş duydular.

-Vay evimiz yıxıldı,-deyə Cabir pıçıldadı.

-Qorxaqlıq eləmə!-deyə uşaqlar onun pencəyini dartdılar.

-Bəli, yol vərəqəsini də, pravanı da.

Elmira Şamilin özünü itirdiyini görüb cavab verdi:

-Yoldaş serjant, yoxumuzdur.

-Necə yəni yoxumuzdur,-deyə serjant hirsləndi,-Maşın haranındır?

Elmira işin tərs gətirdiyini görüb maşından düşdü.

-Məktəbindir,-dedi.

-Məktəbin ki, maşını yoxdur. Təzə almısınız?

-Yox, köhnədir. Pambıq zavodu bağışlayıb.

-Nə vaxt?

-Bir ay olar.

-Nömrə almamısınız?

-Yox...

-Bəs yanlarına «uçebnıy» sözünü nə üçün yazmısınız?

-Serjant dayı, öyrənirik də,-deyə Şamil söhbətə qarışdı.

-Belə öyrənmək olmaz. Bu hökuməti aldatmaqdır. Bu cinayətdir. Yol vərəqəsiz, pravasız, nömrəsiz maşını uşaqla doldurub sürməyə sizə kim icazə verib?

Heç kim dinmədi. Bu işin təşkilatçıları olan Şamilin, Cabirin, Kamilin rəngi ağardı. Elmira lap özünü itirdi. O, məktəb direktoruna nə cavab verəcəkdi?!

Bayaqdan dil boğaza qoymayan, mahnı oxuyan, şənlənən uşaqlar lal-dinməz qaldılar. Aralığa ani sükut çökdü. Bundan istifadə edən Şamil dilləndi:

-Əmi, Namiq dedi ki, dayıma nişan versəniz sizdə işi olmaz.

Serjant daha da hirsləndi.

-Namiq qələt elədi. Namiq kimdir?

Şamil belə deməyinə peşman oldu.

Serjant ucadan:

-Tez olun, maşından düşün!-Sonra da Şamilə:-Sən də maşını yoldan çək, gətir budkanın yanına. Sizi belə buraxmaq olmaz.

Uşaqlar bir-bir maşından atılıb düşdülər. Şamil də maşını kənara çəkdi. Hamı dinməz-söyləməz gəlib budkanın yanına yığışdı.

-Bax, belə,-deyə serjant cəld budkaya tərəf addımladı. Elmira da onun dalınca getdi:

-Yoldaş serjant...

Milis nəfəri onun nə deyəcəyini gözləmədən:

-Yox, olmaz, buraxa bilməyəcəyəm! Olmaz...

Serjant cəld budkaya girdi. Elmira və uşaqlar pərt halda onun hərəkətlərini izlədilər. Birdən serjantın:

-Allo, allo!.. Yoldaş Məmmədov?.. Salam. Şahbazovdur. Bir maşın tutmuşam. Müfəttişlərdən orada olsa idi, biri gəlib apardı. Necə?.. heç kim yoxdur?.. Özüm?.. Eybi yoxdur, gələrəm.

Serjant Şahbazovun bu söhbəti bayaqdan bəri uşaqların qəlbində olan ümidi alt-üst elədi.

Uşaqlardan heç kim dinmədi. Ancaq bütün məsuliyyətin öz üzərinə düşdüyünü görən Elmira bir də serjantı sınayırmış kimi dedi:

-Yoldaş Şahbazov, bəlkə bu dəfəlik bizim üçün keçəsiniz.

-Yox olmaz. Mən çox sevinirəm ki, heç bir hadisə baş vermədən sizi sağ-salamat tutmuşam. Buraxa bilmərəm. İş məndən qurtardı, qaldı naçalnikə.

Sonra da o, əli ilə maşını göstərərək:

-Haydı, tez olun, minin!..

Bayaqdan şoferlik edən Şamil kabinəyə minmək istəyəndə serjant dedi:

-Sən də yuxarı çıx. Şamilin lap qanı qaraldı. Maşına minərkən deyinə-deyinə:Əcəb işə düşdük,-dedi,-Maşını sürməyə də qoymurlar. Elə bil.



yeyəcəyik. Serjant onun sözlərini aydın eşitsə də qulaq ardına vurub cavab vermədi. Hamı maşına doluşandan sonra özü keçib kabinədə oturdu və maşını ehmal-ehmal sürüb asfalt yola çıxartdı.

Asfaltda elə sürdü ki, heç uşaqlar maşının getdiyini hiss etmədilər. Elmira uşaqların sakit oturduğunu görüb narazı səslə:

-Gördünüz nə elədiniz də? İndi biz naçalnikə nə deyəcəyik? Məktəb direktoruna nə cavab verəcəyik?

Heç kim danışmırdı, hamı günahkar-günahkar yoldaş Elmiraya baxır, ondan üzr istəyirdi. Əlbəttə, Elmira ilə olsa idi, onları bağışlardı. Lakin indi onun özünü məhşər ayağına çəkirdilər.

Elmira bu fikirdə idi ki, Şahbazov maşının tormozunu lapdan çəkdi. Uşaqlar bir-birlərinə dəyib sanki yuxudan ayıldılar. Şamil:

-Qabaqdakı dərəyə bax,-dedi.

-Eh, yaman arsız uşaqsan,- deyə Aslan cavab verdi.-Biz nə fikirdəyik, sən nə fikirdə.

-Hələ onu de,-deyə Cabir söylədi.

-Yaxşı, söhbəti kəsin,-deyə Elmira uşaqları sakitləşdirdi.

Bu zaman Şahbazov maşını milis idarəsinin qabağında saxladı. Sonra bir o yana, bir bu yana baxdı, yenə də maşını işə saldı, dal-dalı verib lap küncə çəkdi. Özü düşən kimi Elmiranı da çağırdı.

Elmira da cəld addımlarla onun arxasınca getdi. Uşaqlar da maşından düşüb, milis idarəsinin ikinci mərtəbəsinə qaçdılar. Onlar yuxarı çatanda nə serjantı, nə də Elmiranı gördülər. Oyan-buyana baxırdılar ki, birdən qarşıdakı meşin qapı açıldı. Uşaqlar gözlərinə inanmadılar. Görən Muxtar burada neyləyirdi?!.

Muxtar da onları görən kimi soruşdu:

-Uşaqlar, oyun necə oldu?

-Necə olacaq, uduzduq,-deyə Kamil kinayə ilə cavab verdi.

-Hesab neçə oldu?

-Dörd-bir!

-Ola bilməz.

-Niyə olmur?

Muxtar sanki yuxudan ayıldı:

-Yaxşı, bəs buraya nə üçün gəlmisiniz?

-Sənə nə var!

-Necə mənə nə var?

Birdən maşın Muxtarın yadına düşdü.

-Maşına görə, hə?

Heç kəs cavab vermədi.

Bu zaman milis rəisinin qapısı cırıldadı. Serjant Şahbazov və pioner baş dəstə rəhbəri Elmira otaqdan çıxdılar. Elmira pörtmüşdü.

Muxtar Elmiranı görən kimi salam verdi. Amma Elmira onun salamını almadı. Hələ üstəlik üzünü yana da çevirdi. Onun bu hərəkəti Muxtara ağır gəldi.

Serjant Şahbazov qabaqda, Elmira isə onun dalınca həyətə tərəf getdilər. Onlar pilləkənə çatanda Elmira geri dönüb uşaqlara dedi:

-Gəlin görək!

Uşaqlar da sakit addımlarla onların ardınca getdilər. Bu zaman Aslan ayaq saxladı. Muxtar onun qoluna girib soruşdu:

-Nə olub?

-Bəs sənə demədilər? Futboldan qayıdanda maşınımızı tutublar.

-Elə buna görə qanınız qaradır?

-Bu azdır? Hələ üstəlik uduzmuşuq da. Görəsən rəis müavini nə dedi:

-Mənə elə gəlir ki, maşını buraxmırlar.

-Doğrudan? Nədən bildin?

-Onlar içəridə söhbət edəndə Şamil qulağını qarıya dayayıb qulaq asırdı.

Bu vaxt Elmira geri döndü, Aslanın Muxtarla söhbət etdiyini görüb səslədi:

-Aslan, geri qalma!

Muxtar pərt olsa da üzə vurmadı:

-Yaxşı,-dedi.

-Aslan sən get, mən özümü bir rəisin yanına salım, görüm nə deyir. Bəlkə buraxdı.

-Nə olardı?!-deyə Aslan cavab verdi.

Onlar ayrılarkən milis müavini otağından çıxıb rəisin yanına getdi. Bunu görən Muxtar sevindi.

-Əcəb oldu, ikisi də bir yerdə. İndi gedib yoldaş İsrafilova deyərəm.

Sonra Muxtar peşmançılıq çəkdi:

-Birdən rəis maşını buraxmadı, onda nə olsun. Eh, eybi yoxdur, nə olur olsun...

Muxtar qapını açarkən İsrafilovun qəhqəhələrini eşitdi. Cəld də qapını çəkmək istədi. Lakin buna macal tapmadı. İsrafilov onu çağırdı:

-Muxtar, bura gəl!

Muxtar içəri girən kimi rəis müavini dedi:

-Bayaqdan yoldaş İsrafilovla sənin dostlarının serjant Şahbazovu aldatmasına gülürük.

Elə Muxtara da bu lazım idi. İndi o, İsrafilovun yanına nə üçün gəldiyini deyə bilərdi. Muxtar ürəkləndi:

-Yoldaş rəis, mən də elə ona görə gəlmişəm.

Bu işə sən necə baxırsan?-deyə rəis qayğıkeşliklə soruşdu.

-Mən?.. Mən?..

Muxtar demək istəyirdi ki, yoldaş rəis səhv ediblər. Nə olar ki, ancaq birdən fikirləşdi ki, belə desəm İsrafilovun xatirinə dəyər. Odur ki, cəld özünü toplayıb:

-Məncə yaxşı iş görməyiblər.

-Əlbəttə, çox pis iş görüblər,-deyə rəis müavini əlavə etdi.-Cinayət işləyiblər.

Cinayət sözünü eşidən kimi Muxtarın boğazı qurudu. Onun xahiş dolu iri, qara gözləri İsrafilova zilləndi.

Bunu görən İsrafilov Muxtardan soruşdu:

-Hə, naçalnik, sən necə bilirsən? Onlar üçün nə ölçü götürək?

Muxtar sadə, qayğıkeş rəisin sözlərindən ürəklənib gülə-gülə dedi:

-Bu dəfəlik bağışlamaq lazımdır.

-Eşidirsən də,-deyə İsrafilov müavininə müraciət etdi.

-Nə deyirəm ki, bağışlayaq da...

-Yaxşı, bəs maşın haradadır?

-De, qoy Şahbazov onları yola salsın. Məktəb direktoruna zəng elə, əhvalatı danış. Bir də belə işə icazə verməsin.

-Yox, yoldaş İsrafilov, bu dəfəlik məktəb direktoruna deməyin. Onun bu işdən xəbəri yoxdur. Bilsə qiyamət qoparar. Lap pioner baş dəstə rəhbərini işdən çıxarar,-deyə Muxtar yalvarıcı bir səslə dilləndi:

-Xahiş edirəm, heç kimə deməyin.

-Yaxşı, heç kimə demərik, sonra?

-Sonra?.. Sonra çox sağ olun!..

-Get Şahbazovu bura çağır.

Muxtar öz minnətdarlığını bildirmək üçün söz tapmadı. Elə bil ona dünyanı vermişdilər. İndi onun qanadı olsa idi buradan-milis rəisinin otağından düz həyətə futbol oyununda uduzub gələrkən yolda maşınları tutulmuş, qanı qara yoldaşlarının yanına uçar, bu şad xəbəri onlara çatdırardı. Lakin nə etmək olardı... Muxtar İsrafilovun kabinəsindən çıxan kimi koridordakı açıq pəncərədən başını bayıra çıxarıb:

-Yoldaş Şahbazov!.. Yoldaş Şahbazov!.. Sizi rəis çağırır,-deyə qışqırdı.

Bu zaman maşının kuzovuna dolmuş uşaqlardan bir neçəsi Muxtarın sözünü təkrar etdi:

-Yoldaş serjant, rəis sizi çağırır!..

Maşını işə salan Şahbazov rəis İsrafilovun adını eşidəndə motoru söndürdü, sonra da cəld kabinədən düşüb milis şöbəsinə getdi.

Milis serjantı pilləkənlərlə yuxarı çıxana qədər Muxtar əlini havada oynadaraq şən bir səslə dedi:

-Uşaqlar, qorxmayın, maşınımızı buraxırlar.

Bayaqdan onunla qarşı-qarşıya gələndə üzünü yana çevirən Elmira cəld geri döndü, istədi soruşsun ki, doğru deyir, ya yox. Ancaq imkan tapmadı, Muxtar pəncərədən çəkilmişdi. Uşaqlar onun üçün ikinci mərtəbəyə baxırdılar ki,

birdən o, birinci mərtəbənin qapısında göründü. Birinci dəfə onu görən və yüyürən, sual verən Aslan oldu:

-Muxtar, nə oldu, düzəldi?

-Bəs necə...

-Ay can! Ay can,-deyə Aslan sevindi. Başqa uşaqlar da ona qoşuldular. Elmira uşaqların səs-küy saldıqlarını görüb onlara acıqlandı:

-Özünüzü apara bilmirsiniz? Sakit olun!. Sonra da:-Muxtar, bura gəl,-deyə onu yanına çağırdı, qolundan tutub kənara çəkdi, nə isə demək istəyirdi ki, serjantın tappatup salan iri, uzunboğaz ayaqqabılarının səsi milis idarəsinin taxta pilləkənlərində eşidildi. Uşaqlar kimi Elmira və Muxtar da cəld qarıya tərəf getdilər. Serjant üzünü onlara tutub dedi:

-Hə, gedin, ancaq bir də belə iş görməyin. Muxtar kimdir? Onu yoldaş İsrafilov çağırır.

Muxtar uşaqlardan ayrılıb yuxarı gedəndə serjantın ucadan dediyi bu sözləri eşitdi:

-Heç kim maşına minməməlidir. Qoy Şamil maşını yavaş-yavaş sürüb aparsın. Bir xəta-zad baş verər. Siz piyada gedin.

Uşaqların kefi kökəldi. Elmira hamının adından razılıq elədi:

-Çox sağ olun!

Aslan isə bayaqdan ona acıq verən uşaqlara baxıb ucadan dedi:

-Sağ olsun Muxtar!

Cabir bu sözün onlara atıldığını bilib dedi:

-Sən də nə yapışmısan Muxtardan.

Hamı bunu eşidib Cabirə baxdı. O da işarə ilə serjantı göstərib:-Kişi bizi buraxıb, bu da başlayıb ki, sağ ol Muxtar! Deginən sağ olsun yoldaş serjant, yoldaş Elmira, mən də deyim hə! Yoxsa Muxtar, Muxtar!-dedi.

O nə isə yenə bir ara qızışdıran söz demək istəyirdi ki, maşının partapartı qulaq batırdı. Cabir susdu. Bunu görən Aslan da danışmadı. Maşın yavaş-yavaş həyətdən çıxdı. Uşaqlar da söhbət edə-edə, şən halda onun arxasınca getdilər.

## RƏQƏMLƏR POZULMUŞDU

Muxtarın gətirdiyi kitab, balaca Qambayın dedikləri hamıdan çox milis rəisi İsrafilovu sevindirdi. O dedi:

-İndi bu izlə getmək olar. Sonra ekspert şöbəsinə zəng etdi:

-Yoldaş Məmmədov, İsrafilovdur, bir bura zəhmət çək!

Məmmədov içəri girən kimi İsrafilov yarızarafat, yarıgerçək kitabı ona uzadıb dedi:

-Bir gör bu ləkələr nə danışır?

Məmmədov kitabı alıb diqqətlə baxdı və gülə-gülə!-cavab verdi:

-Bu ləkələr deyir ki, mən cinayətkarın barmaqlarının iziyəm.

-Şübhən yoxdur ki?

-Mənim yox! Bəs sizin?

-Mən də siz fikirdəyəm. Ancaq bir də yoxlamalıyıq.

-Əlbəttə, bunsuz olmaz.

Məmmədov söhbət edə-edə kitabı açdı. Dərhal da birinci səhifənin yuxarısında yazılmış bu sözləri oxudu: «Davud Nəsibovun kitablarından. 1965-ci il. 10 mart. Bakı».

O, sevinclə İsrafilovun üzünə baxdı:

-Bəs yazılar haqda mənə heç nə demirsiniz?..

İsrafilov şən halda:

-İzlər bir-ikidir məgər?!

-Yaxşı, kitabın tapıldığı yer məlumdur?

-O da məlumdur. Sən ver, qoy bu kitabı ekspertdən keçirsinlər. Biz də gedək Böyükdağın ətəyinə. Balaca oğlan ağacla maşının nömrəsini də güneyə yazıb.

-Hansı maşının?

-Kitab maşından atılıb.

-Bu lap qiyamət oldu ki. Tapan da buradadır?

-Maşın gedib gətirməyə.-O bu sözləri deyib saata baxdı, sonra da əlavə etdi.

-Uzağı on beş-iyirmi dəqiqəyə burada olmalıdır. Şofer kənddən zəng eləmişdi ki, çıxırıq.

-Hansı kənddən?

-Səmədabaddan...

-Oldu. Düz on beş dəqiqədən sonra aşağıda sizi gözləyirəm.

Məmmədov otaqdan çıxarkən sanki yadına nə isə düşdü:

-Yoldaş İsrafilov,-dedi.-Biz gərək tezliklə ad-familiyanı da müəyyən edək. Bu bizə lazım olacaqdır.

-Əlbəttə, bu saat tapşıracağam ki, Mərkəzi ünvan bürosuna zəng etsinlər.

-Hökmən bu gün eləməlidirlər, sabah istirahət günüdür,-deyə Məmmədov otaqdan çıxdı.

...Aşağıdan maşın fiti eşidildi. İsrafilov qapını bağlayıb cəld həyətə düşdü. Artıq hamı maşında idi. Balaca Qambay onu görən kimi salam verdi. İsrafilov da mehribanlıqla:

-Salam, oğlum, necəsən?

Qambay utanaraq başını yuxarı qaldırmadı alçaqdan cavab verdi:

-Yaxşıyam...

Maşın milis idarəsinin həyətindən çıxanda paqonunda üç ulduz olan, ucaboylu, qırmızı, dolusifətli bir kişi Qambaydan soruşdu:

-Qoçaq, adın nədir?

-Qambay.

-Demək Qambay sənsən, hə?

-Bəli.

Bu zaman çiynindən fotoaparat asmış milis nəfəri də onu diqqətlə süzdü. Bu, Qambayın nəzərindən qaçmadı. O da gözaltı aparatlı kişiyə baxdı. Birdən maşın silkələndi. Az qaldı onların başları bir-birinə dəysin. Qırmızı sifətli kişi buna əhəmiyyət vermədən söhbətinə davam etdi:

-Neçədə oxuyursan?

-Beşdə.

-Əlaçısan?

Qambay danışmadı.

-Hə, niyə dinmirsən? Deyirəm əlaçısan?

-Yox, iki dənə dördüm var.

Qırmızı sifətli kişi təkidlə:

-Onları da beş elə. Bildin? Yaxşı oğlansan, əlaçı ol.

Qambayın susduğunu görən fotoaparatlı milis nəfəri söhbətə qarışdı:

-Ay Səftər, elə əlaçı kimidir də. Uşağı nə sorğu-suala tutmusan.

Bayaqdan lal-dinməz oturan milis nəfərinin dodaqları qaçdı.

-Onu de də. Bura məgər məhkəmədir?

-Yox. Söhbət yolun nərdivanıdır. Bunsuz olmaz.

Daha heç kim danışmadı. Aralığa yorucu bir sükut çökdü. Bundan istifadə edən Qambay dönüb maşının pəncərəsindən bayıra baxdı. Bu yerlərin hər qarışı ona doğma və tanış idi. O bu yerlərdə, bax güllü dağın ətəklərində nə qədər oynamış, xoş ətir qoxuyan çiçəklər içərisində uzanıb sonsuz səmanı seyr etmişdi. Dağın güneyindəki iri daşlar elə bil onu çağırıb deyirdi: gəl, gəl mənim arxamda gizlən. Quzu otaran balaca çobanlardan heç kim səni tapa bilməz. Sən yenə oyunda birinci yeri tutarsan. Qambay bu fikirdə idi ki, onun qulağına tanış uşaq səsləri gəldi: «Salamın səsidir. Yox Qədirindir... Bəlkə də»...

Bu zaman maşın bir oğlanı arxada buraxdı. Qambay onu görən kimi az qaldı qışqırsın: «Qədir hey!» Ancaq qışqırmaq olmazdı. O, böyük adamlarla çox mühüm bir iş üçün gedirdi. Yaxşı ki, Qədir də onu görmədi. Yoxsa çağıracaqdı. Qambay da sussaydı dostu inciyəcəkdi.

Yoğun bir səs Qambayı düşüncədən ayırdı:

-Qambay bəy, çox qalır?

-Yox, az qalır. Buradan kəndəcən,-deyə Qambay çevrilib qırmızı sifət kişiyə cavab verdi.

-Əcəb az qalır,-deyə kişi istehza ilə güldü.

Qambay səhvini düzəltməyə çalışdı.

-Kəndə yox. Ey, bax oracan,-deyə üç-dörd yüz metr uzaqlıqda qaralan yaşıl təpəni göstərdi.

Həmin kişi güldü:

-Bu başqa məsələ.

Bir qədər getdikdən sonra Qambay qırmızı sifət kişiyə dedi.

-Əmi, kabinəni döyün, qoyun saxlasın. Çatmışıq.

Ucaboy kişi iri əli ilə bir neçə dəfə kabinəni döydü. Dərhal da maşın dayandı. Əvvəlcə qarının ağzında oturmuş milis nəfəri, onun ardınca da Qambay yerə hoppandı.

-Hansı tərəfə gedəcəyik?-deyə fotoaparatlı milis nəfəri soruşdu.

-Bax ora,-deyə Qambay əli ilə onlardan otuz-qırx addım aralıda olan bir yeri göstərdi.

İsrafilovgil cəld Qambayın dediyi tərəfə yollandılar. Məmmədov qayaya çatan kimi buradakı əyri-üyrü cızıqları görüb dayandı, cibindən bir şüşə çıxarıb gözünün qabağına tutdu, onları oxuyurmuş kimi xeyli baxdı. Bunu görən İsrafilov və o biri milis nəfərləri onun başına toplaşdılar. Qambay özünü saxlaya bilməyib dedi:

-Yox, buranı demirəm. Bir az bu tərəfə gəlin.

Qambay onları təpənin gün düşən tərəfinə çağırdı.

İsrafilov soruşdu:

-Hanı, haranı deyirsən, bala?

-Bax, bunları mən yazmışam. Ancaq...

-Yaxına getmə bala, görürəm, yağış yaman pozub-deyə İsrafilov söylədi. Sonra da soruşdu:

-Sən aydın yazmışdın?

-Bəli, çox aydın.

Məmmədov dedi:

-Eybi yoxdur. Bu yazılardan bir şey çıxararıq.

Qambay fərəhləndi. Amma pozulmuş rəqəmləri görən kimi pərt oldu. Fikirləşdi: «Bunu necə oxuyacaqlar?» Sonra milis nəfərlərinin qəribə şüşələrlə yazılara baxdığını, onların şəkillərini çəkdiyini, maraqlı mülahizələrini görüb sevindi: «Tapacaqlar! hökmən tapacaqlar».

Bu ara İsrafilov soruşdu:

-Hə, yoldaş Məmmədov, nə deyə bilərsiniz? Bir qənaətə gəlmisinizmi?

-Mənə elə gəlir ki, yazılar «AZV-dir. Rəqəmlərə gəldikdə isə qəti fikir söyləmək olmaz. Ancaq bun deyə bilərəm ki, 3 və 8 rəqəmlərindən ibarət olan bir nömrə imiş.

-Mən də bu fikirdəyəm,-deyə bayaqdan şüşə ilə yazılara baxan milis nəfəri dilləndi.-Hər halda işıq ucu var.

Maşında Qambayı sorğu-suala tutan kişi də öz fikrini bildirdi:

-Məncə yazılar «AZV» deyil, «AZB»-yə daha çox» oxşayır.

-Əlbəttə, bizim iki ehtimalımız var,-deyə İsrafilov söhbətə yekun vurdu. Sonra da Qambaya müraciət etdi.-Bala, bəlkə rəqəmlərdən biri yadında qalıb?

-Yox, mən elə mexaniki olaraq yazdım.

İsrafilov Qambayın həyəcan keçirdiyini görüb dedi:

-Eybi yoxdur, elə-belə soruşurdum. Yaxşı, bəs kitabı haradan tapdın?

Qambay hər şeyi yerli-yerində danışmağa başladı:

-Mən səhər burada quzu otarırdım. Arxası üstə yerə uzanmışdım. Birdən bir şey tappıltı ilə yanıma düşdü. Ayağa durdum. Kitabı götürdüm. Birdən maşın gurultusu eşitdim. Quzular hürkdü. Mən maşına diqqətlə baxdım. Şübhələnib nömrəni yazdım.

-Yaxşı,-deyə İsrafilov Qambayın qıvrım saçını tumarladı.-Sən ağıllı iş görmüsən.

Bu vaxt Məmmədov keçib yola çıxdı. Maşının haradan burulub getdiyinə baxdı.



Elə oradaca:

-Doğrudur,-dedi,-Buradan tullanıb. Özü də Karvan keçidindən gələn maşından.

Məmmədov cəld aşağı tullandı. Bayaqdan pərən-pərən düşüb hər yeri yoxlayan milis işçiləri bir yerə toplaşdılar.

-Hər şey aydındır,-deyə İsrafilov söhbətə yekun vurdu.

-Gedə bilərik?

-Əlbəttə,-deyə Məmmədov onunla razılaşdı.

Onlar maşına minib milis idarəsinə qayıtdılar həyətdə İsrafilov şoferə dedi:

-Sən bizim bu qoçaq Qambayı kəndə apar.

-Yox, yoldaş İsrafilov, mən özüm gedərəm.

-Min maşına, adam sözə qulaq asar.

-Bilirsiniz,-deyə Qambay utana-utana izah etməyə başladı.-Mən Muxtargilə gedəcəyəm.

-Bu başqa məsələ. Yaxşı edəcəksən, adam dostunu yaddan çıxarmaz.

İsrafilov idarəyə, Qambay isə Muxtargilə yollandı. O, həyətdən çıxıb milis bağından keçəndə bir nəfər arxadan onu səslədi:

-Qambay!.. Qambay!..

Qambay geri dönüb Muxtarı gördü. Sevinclə soruşdu:

-Harada idin? Bəs ağacların yanından keçəndə səni görmədim.

-Gizlənmişdim.

-Nə üçün?-deyə Qambay təəccüblə soruşdu.

-Milis idarəsindən görməsinlər. İsrafilovdan utanıram. Görən kimi çağırır. Söhbət edir. Qiyamət kişidir. Bilirsən xatirimi necə istəyir?! Deyir yaşın çatsaydı, səni milisioner götürərdim.

-Mən də işlərdim,-deyə Qambay cavab verdi.

-Milis işi çox maraqlıdır,-deyə Muxtar öz fikrini bildirdi.

Dostlar söhbət edə-edə gəlib göy rəngli iri darvazanın yanına çatdılar, Qambay ayaq saxladı.

-Gəl,-deyə Muxtar onun qolundan dartdı.

-Yox, getməyəcəyəm. Söhbət elədik də:

-Vallah, bir stəkan çay içməsən, buraxmayacağam

-Anam nigaran qalar, gecdir.

-Gec-zad deyil. Özündən çıxarma.

-Sabah gələrəm.

-Gəl dedim,-deyə Muxtar Qambayı güclə dartdı. Bu zaman it hürdü. Səlmi xala səs eşidib həyətə çıxdı. Oğlunu görüb dedi:

-Muxtar, bayaqdan iki-üç dəfə səni soruşublar. Bilmirəm iclasınız var, nə var. Dedilər tez məktəbə gəlsin.

-İndi gedərəm,-deyə Muxtar cavab verdi. Sonra da Qambaya:

-Saat dörddə toplanışımız var. Gör necə də yadımdan çıxıb,-dedi.

-Tez get,-deyə Qambay onun əlini sıxıb ayrıldı. Bir qədər getdikdən sonra geri dönüb qışqırdı:

-Muxtar, yəqin işinə görə sənə təşəkkür edəcəklər.

-Bilmirəm,-deyə Muxtar da cavab verdi,-Qambay, sabah tez gəl ha! Gözləyəcəyəm. Bildin?

-Yaxşı, axşamüstü gələrəm!..

## TƏŞƏKKÜR ƏVƏZİNƏ TÖHMƏT

Günəş əyildikcə evlərin kölgələri böyüyür, axşam sərinliyi düşürdü. Hərdən lap aşağılardan sürünən topa-topa ağ buludlar elə bil uca, qarlı zirvələrin quyuğunu yığıb özü ilə gətirir və sanki Muxtara deyirdi:

«Evin kölgəsindən dur!»

Muxtar üşüdüyünü görüb kölgədən qaçdı. Gedib lap həyətin ortasındakı hündür daşın üstündə oturdu. Ayaqlarını da aşağı salladı. Günəş onun kürəklərini qızdırdı.

-Eybi yoxdur,-dedi.-Xeyri var, qoy yandırsın.

Bayaqdan onu izləyən anası:

-Muxtar, bir bura gəl,-deyə onu çağırdı.

Muxtar daşın üstündən düşüb anasının yanına getdi.

-Bir gözümün içinə bax,-deyə anası yarızarafat, yarıgerçək səsləndi.-Niyə belə bikefsən?

-Bikef nə üçün oluram, ana can,-deyə o cavab verdi. Sonra da anasının fikrini yayındırmaq üçün dedi,-Yox, elə-belə həyətdə oturub Qambayı gözləyirəm.

Dünən qapıda gördüyün oğlanı. Bilirsən necə yaxşı oğlandır?! Həm də yaxşı dostdur!..

-Yaxşı, yaxşı az təriflə. Gəl xörəyini ye.

-Anama qurban olaram mən!.. Vallah ac deyiləm.

-Heç sənin işindən başım çıxmır. Adam də səhər yeməyinin üstündə bu vaxtacan dayana bilər?!

-Bilər, ana bilər. Acıyanda da yeyər,-deyə Muxtar zarafata saldı, anasının boynundan qucaqladı, o üzündən, bu üzündən öpdü.

-Eh, yenə sənin şitliyin tutdu,-deyə Səlmi arvad onun əlindən çıxıb evə getdi.

Muxtar da gəlib daşın üstündə oturdu.

-Nə oldu? Qambay niyə gəlmədi?-deyə öz-özünə fikirləşdi. Bu vaxt bir sərçə cikkildədi. Muxtara elə gəldi ki, bu sərçə deyir: «Darıxma, Qambay yoldadır. İndi gələr».

Bir az keçmişdi ki, kimsə həyət qapısının cəftəsini üç-dörd dəfə taqqıldatdı. Sonra da çağırdılar.

-Muxtar! Muxtar!..

Muxtar Qambayın səsini tanıdı. Elə bil dünyanı ona verdilər. Bayaqdan onu əzən ağır yük üzərindən götürüldü. O, dərindən nəfəs aldı. «Görəsən insanlar arasında dostluq, yoldaşlıq olmasaydı nə olardı? İnsanlar necə yaşayardılar?»-deyə fikirləşdi.

-Qambay, sənsən? Gəl, qapı açıqdır!-deyə qışqırdı.

Muxtar daşın üstündən düşüncə Qambay qapını açıb həyətə girdi.

-Muxtar, təbrik edim, ya yox?

-Təbrik? Eh, bilirsən necə dərsimi verdilər?!

-Necə, dərsini?-deyə Qambay təəccüblə soruşdu.- Heçnə başa düşmürəm.

-Gəl, hamısını sənə danışacağam,-deyə Muxtar Qambayın qolundan tutub həyətin o başına apardı, özü düzəldib, rənglədiyi skamyada oturtdu.

-Hə, danış görək,-deyə Qambay təkid etdi.

-İstəmirəm, qanın qaralar.

-Bəsdir ə, qağam canı bundan sonra sənə bir sirr verməyəm. De görüm, sənin haqqında birinci kim danışdı.

-Birinci yoldaş Elmira.

-Elmira kimdir?

Pioner baş dəstə rəhbərimiz.

-Başa düşdüm. Nə dedi?

-Dedi ki, icazəsiz olaraq oyunu qoyub getdiyinə görə mən təklif edirəm Muxtara töhmət verilsin.

-Töhmət?-deyə Qambay ucadan soruşdu. Elə bil onu yuxudan oyatdılar,-Bəs sən hara getdiyini onlara demədin?

-Yox.

-Axı nə üçün? Sən ki, pis iş görməmisən. Danışsaydın yoldaşların səni başa düşərdilər. Bəs uşaqlar nə dedilər?

-Uşaqlardan çoxu danışmadı. Ancaq məni yandıran Cabir oldu. Dedi ki, bu haqda «Drujinanın səsi»-nə də məqalə yazmaq lazımdır. Qoy Muxtar oxuyub ağıllansın.

-Pah atonnan, adamları tanımaq olmurmuş. Cabir mənim özümə deyib ki, bizim məktəbdə Muxtarı kimi oğlan yoxdur. İndi isə belə? Bəs o biri uşaqlar Cabirin ağzından vurmadılar?

-Vurdular. Aslanla Solmaz ürəyimdən tikan çıxartdılar. Dedilər ki, biz Muxtara töhmət verilməsinə razı deyilik. Bu vaxt yoldaş Elmira onlara acıqlandı.

-Deyəydin ki, milis idarəsinə kömək edirdim.

-Uşaqlardan çoxu bilirdi. Yoldaş Elmira Cabirin sözünə baxıb məndən acıq çıxdı. Qoy çıxsın.

-Eh, Muxtar, sən lap lal-dinməzsənmiş ki. Sənin yerinə olsa idim, aləmə haray salardım ki, bizim dəstə uşaqları düz iş görmürlər. Necə yəni təşəkkür əvəzinə töhmət? Hamı buna səs verdi?
-Yox, iyirmi pionerdən doqquzu e'tiraz elədi.
Qambay bir qədər fikrə getdikdən sonra:
-Səs çoxluğu qazanıblar da,-dedi.-Eybi yoxdur. Ancaq gərək təslim olmayasan. Pioner son nəfəsinədək mübarizə ararmalıdır. Bu haqda oxumamısan? Bəlkə məktəb direktoruna deyəsən, hə?
-Yox, istəmirəm. Təki, yaralı sağalsın. Bu da olar mənim təşəkkürüm.
Qambay bir an Muxtara baxdı. Onun mülayim üzündən, iri, ağıllı qara gözlərindən insana olan sonsuz məhəbbət oxunurdu. Balaca Muxtar onun nəzərlərində durmadan böyüdü, haqq-ədalət uğrunda döyüş meydanlarında vuruşan qəhrəmanlara çevrildi.
Bunu düşünən Qambay Muxtarı qucaqlayıb öpdü.
-Malades Muxtar,-dedi,-Sən ağıllı oğlansan.
Bu ara həyət qapısı cırıldadı. Sonra da səs gəldi.
-Muxtar, evdəsən?
Çağıran Aslan idi. Muxtar sevinclə dedi:
-Aslan, burdayıq!
Dərhal da durub qapıya tərəf yüyürdü.
Aslan həyətə girdi. Qambayı görəndə çox sevindi.
-Salam, Qambay?! Nə yaxşı gəlmisən!
Qambay və Aslan çoxdan görüşməyən dostlar kimi qucaqlaşdılar. Elə ilk dəqiqədən Qambay özünü saxlaya bilməyib soruşdu:
-Aslan, bu nə işdir, dəstə rəhbəriniz görüb?
Aslan sağ əlini havada yellədib:
-Boş şeydir,-dedi.-Bu haqda danışmağına dəyməz.
-Necə yəni dəyməz?
Ona görə ki, indi uşaqlar- hamı bu məsələni bilir. Bilir ki, Muxtara töhməti nahaq yerə veriblər.

Muxtar dedi:
-Hələ drujina qəzetinə də yazacaqlar.
-Yox, qəzet məsələsi lax çıxdı,-deyə Aslan səsləndi.-Yoldaş Elmira dedi ki, elə bu dərs Muxtara bəsdir. Məncə bizə də söhbət bəsdir. Gəlin, bir iş görək.
-Neyləyək?-deyə Muxtar soruşdu.
-Mən bu saat sizə bir iş taparam,-deyə Aslan cəld evə, Səlmi xalanın yanına getdi.
Evdən çıxan kimi zarafatla dedi:
-Uşaqlar, komandirin əmrini yerinə yetirin. Cəld tövləyə gedin. Qapının girəcəyindəki belləri götürüb çiyninizə qoyun. Sonra da mənim ardımca bostana gəlin. Səlmi xalanın rəhbərliyi altında bəzi-bəzi işlər görəcəyik.
- Bəs, yoldaş komandir nə edəcək?-deyə Qambay gülə-gülə soruşdu.
-Yoldaş komandir də bir bel götürüb işləyəcək.
Muxtar həmişə şən olan Aslana baxıb başını yırğaladı və Qambaya dedi:
-Qiyamət oğlandır. O harda olsa adam darıxmır. Kaş bütün uşaqlar belə şən olaydı.
-Mənim də ondan xoşum gəlir.
Dostlar tövləyə gedib belləri götürdülər. Aslan yenidən komanda verdi:
-Bellər çiyinə! Haydı, marş!
Bu vaxt Səlmi xala da evdən çıxdı, uşaqların zarafat edə-edə evin günbatanında olan dərəyə endiklərini görüb sevindi. Hətta ucadan dedi:
-Bu Aslan yenə meymunluq edir!..
Dağlardan əsib gələn mülayim külək dərədəki hündür, yaşıl qarğıdalı qıçalarını yırğalayır, sanki «Bostana su verin!»-deyib uşaqları tələsdirirdi. Qarpız, qovun, kudu tağları qol atıb bir-birinə qarışmışdı. Hansının kötüyünün harada olduğunu ayırmaq çətin idi. Tünd yaşıl yarpaqların arasında tək- tük sarı yarpaqlar nəzərə çarpırdı. Bunu görən Muxtar:
-Bir gör ha, üç-dörd gündür başım qarışıb, tağlar yanıb. Anamın da əli çatmayıb,-dedi.

-Eybi yoxdur, hamısı düzələr,-deyə Qambay oğlana cavab verdi.-Bilsəydim gəlib suvarardım.

Aslan zarafatla dedi:

-Sən niyə Səmədabaddan basa-basa gəlirdin, mən qarnımı günə verə-verə veyillənmişəm, burdan bura xəbərim olmayıb. Yoxsa indi tağlar qol atıb küçələri tutmuşdu. Elə deyil, Muxtar?

-Elədir,-deyə Muxtar cavab verdi.-Bəlkə də lap göyə çıxardı!

-Sən də lap məni sarıdın ha!

Üç balaca, təmizürəkli, şən dost işə girişdi. Muxtar da, qanqaraldan toplanışı unutdu. Məgər işləyəndə fikir yada düşər?

## XƏYALLARIN AĞIR MƏNGƏNƏSİNDƏ

Ertəsi gün Muxtar lap tezdən məktəbə getdi. Fikirləşdi ki, «Birdən gecikib eləyərəm, söz çıxararlar ki, Muxtar töhmətə görə dərsə gəlməyib». Daxilən o narahat olsa da, əzab çəksə də üzdə bildirmədi, özünü şən göstərməyə çalışdı. Məktəbin həyətində aşağı siniflərdə oxuyan bir neçə balaca uşaqdan başqa heç kəs yox idi. Onlar da cərgə ilə məktəb pilləkənində oturmuşdular. Elə bil indicə müəllim gəlib, onlara dərs deyəcəkdi. Muxtar çatan kimi: - Salam, uşaqlar!-dedi

-Salam,-deyə uşaqlar da birlikdə cavab verdilər.Muxtar da keçib yuxarı səkidə oturdu. Birdən gözü, təcrübə sahəsində işləyən təbiiyyat müəllimi Bədələ sataşdı. Bədəl müəllim bel ilə yer qazırdı. Onun üzü qıpqırmızı idi, tərləmişdi. Yaşlı olsa da çox cəld işləyirdi, uzaqdan baxanları da həvəsləndirirdi. Buna görə də Muxtar Bədəl müəllimin yanına getdi.

-Salam, müəllim, yorulmayasız!

Bədəl müəllim başını yuxarı qaldırıb ona köhnə kişilərə məxsus bir əda ilə salam verən bu oğlanı süzdü:

-Ay sağ ol, oğlum!-dedi.

-Müəllim!-deyə Muxtar tələsik əlavə etdi.-Bəlkə sizə bir az kömək edim, hələ dərsə var.

-Həvəsin varsa, onda qaç anbardan bir bel gətir gəl, bu cuları düzəlt. Keçən dəfə uşaqlar suyu çox buraxıblar, cuları dağıdıb.

-Bu saat!-deyə Muxtar götürüldü, bir anın içərisində geri döndü.

O, da işləməyə başladı. Get-gedə məktəb həyəti uşaqla doldu. Hər tərəfi səs-küy bürüdü. Muxtargilə tamaşa edən də az olmadı.

Onlar yarım saata yaxın işlədilər. Birdən zəng vuruldu. Uşaqlar siniflərə axışdılar. Bədəl müəllim dərsə gedəndə Muxtar dedi:

-Müəllim, mən istəyirəm tənəffüslərdə də gəlim işləyim.

-Muxtar, yorularsan.

-Yox, müəllim...

-Yaxşı, nə deyirəm ki, gəl. Mən də ikinci dərsdən sonra burada olacağam. Görək altıncılar bu gün necə işləyəcəklər.

Müəllim də, Muxtar da dərsə getdilər. Muxtar sinfə girərkən dünənki söhbətin davam etdiyini gördü. O, Solmazın ucadan dediyi bir neçə sözü də eşitdi: «Bizim sinifdə ikiüzlü uşaqlar var». Rəna da Solmazın dediklərini təsdiq etdi. Sonra da Cabir haqqında nəsə demək istəyirdi ki, müəllim gəldi, hamı sakitcə keçib yerində əyləşdi. Elə Muxtara da bu lazım idi. O, istəmirdi ki, uşaqlar onun üstündə bir-biri ilə mübahisə etsinlər, üz-göz olsunlar. Onsuz da sinfə ikitirəlik düşmüşdü. Kimi Muxtarı təqsirləndirir, kimi də onu müdafiə edirdi. Buna görə də Muxtar zəng vurulan kimi bağa qaçırdı. Doğrudur, burada o, elə bir iş görmürdü. Ancaq söhbətdən uzaq olurdu. Hər tənəffüsdə Muxtarın yoxa çıxması uşaqları təşvişə salırdı. Aslanın, Solmazın, Rənanın dili daha da uzanmışdı. Əvvəllər Cabirin, Elmiranın tərəfində olan, Muxtarı tənqid edən Hüseyn də indi danışmır, Solmazgilə haqq qazandırırdı. «Doğrudur, Muxtar elə oğlan deyil».

...Axırıncı zəng çalınanda arxa partada oturmuş Aslan Muxtarı dimsiklədi və pıçıltı ilə dedi:

-Gözlə kitablarımı yığım, bir yerdə gedək.

-Yaxşı, gəl həyətdə gözləyirəm.

Muxtar həyətə çıxdı. Bir qədər keçmiş Aslan gəlib çatdı, qoluna girib dedi:

-Gəl gedək, sənə təzə xəbərlər danışacağam.

-Nə olub ki?-deyə Muxtar dönüb diqqətlə Aslanın üzünə baxdı.

-Hüseyn də təslim oldu. Keçdi bizim tərəfə.

-Eh, mən də deyirəm görəsən nə danışacaq.

-Necə, bu balaca işdir? Elə deyirdi ki, Muxtar satqındır. Ancaq indi düşdü Cabirin üstünə. Səni müdafiə elədi. Dedi ki, Muxtar mühüm iş görür, milis idarəsi ilə əlbir çalışır. Biz ona töhməti düzgün verməmişik.

-Bəs başqa uşaqlar?

-Başqaları da biz deyəni deyir.

-Bəsdir bu barədə söhbət etdik. Gedək xəstəxanaya görək, xəstənin vəziyyətini öyrənə bilərikmi.

Onlar hər tərəfində uca çinar ağacları bitmiş yol ilə rayon xəstəxanasına getdilər...

Xəstəxananın həyətində gül-çiçək ətri adamı valeh edirdi. Onlar güllüklərin arasından keçib skamyada oturdular. Bu vaxt uşaqların yanlarından tanış tibb bacısı keçdi. Muxtar salam verərək, xəstənin əhvalını soruşdu. Xəstənin vəziyyətinin xeyli yaxşılaşdığını eşidib çox sevindi və xahiş etdi ki, əgər mümkünsə onu xəstə ilə görüşdürsünlər. Tibb bacısı xeyli tərəddüddən sonra Muxtarın xahişini yerinə yetirməyə söz verdi.

O, Muxtarı koridorun lap başındakı otağın qabağına gətirdi. Ağ xalat verib yavaş addımlarla onu xəstənin yatdığı palataya apardı.

Muxtarı görən kimi xəstənin üzü güldü. Çuxura düşmüş gözləri parladı. Əllərini çarpayıya dayayıb qalxdı. Bu zaman həkim xəbərdarlıq etdi:

-Siz nə edirsiniz? Sizə tərpənmək olmaz.

Lakin xəstə hələ üstəlik ucadan dedi:

-Məni xilas edən sənsənmi, oğlum, yaxına gəl görüm.

Muxtar onun çarpayısının yanına getdi. Bu zaman xəstə qeyri-ixtiyari olaraq yatağa düşdü. Gözlərindən gilə-gilə yaş axdı. Otağa dərin sükut çökdü.

Muxtar qəhərləndi. Bu ara ayaq səsləri eşidildi. Tibb bacısı qapıdan baxıb dedi:

-Professor gəlir!

Professor otağa girən kimi pıçıltılı bir səslə:

-Bu nədir, icazəsiz iş görürsünüz?! Mən milis işçilərini onun yanına buraxmıram. Siz isə görün nə edirsiniz. Növbətçi həkimdən başqa hamı otaqdan çıxsın!-dedi. Sonra da üzünü tibb bacısına tutub əlavə etdi:

-On gün işimizi geri saldınız.

Sonra professor Muxtara yaxınlaşdı, sağ əli ilə onun saçlarını tumarlayıb dedi:

-Oğlum, sən də get. Çağıranda gələrsən.

-Yaxşı,-deyə Muxtar ağır-ağır nəfəs alan xəstəni süzdü. O, necə də arıqlamışdı, tanınması qalmamışdı. Xəstənin vəziyyəti Muxtara çox ağır təsir bağışladı. O, otaqdan necə çıxdığını, pilləkənlərdən necə düşdüyünü belə bilmədi. İndi onun ayaqları ağırlaşmışdı, hərəsi bir pud olmuşdu. Elə bil kimsə onun çiyinlərindən basırdı, güclü bir əl onu tutub boğurdu. Nəfəsi çatmırdı. O, güclə özünü bağdakı skamyalardan birinin üstünə saldı, oturdu.

Birdən xəstəxana həyətinin barmaqlı dəmir qapısından bir uşaq başını içəri salıb çağırdı:

-Muxtar! Tez ol, gəl!

Bu, Aslan idi. "Muxtarın sədaqətli dostu Aslan. Bu səs ona cəsarət, qüvvət verdi. Onu kədərli xəyalların ağır məngənəsindən xilas etdi. Elə bil dünyanı Muxtara verdilər. Ürəkləndi, cəld ayağa durub dedi:

-Aslan, gəldim!

Dostlar birlikdə kəndə döndülər.



## CİNAYƏT CİNAYƏTLİYİNDƏ QALIR!

Elə həmin gün rayon milis idarəsi Mərkəzi ünvan bürosundan belə bir xəbər aldı: «Bakıda Davud Nəsibov adlı on min nəfər adam yaşayır. Siz onun

atasının adını, keçmişdə hansı küçədə, neçə nömrəli evdə yaşadığını yazsanız, biz bu haqda sizə dəqiq məlumat verə bilərik».

İsrafilov telefonoqramanı oxuyub hirslə bir tərəfə atdı:

-Onun harada yaşadığını bilsə idik, daha sizə nə üçün müraciət edirdik.

Sonra da zəngi basıb milis zabiti Mommədovu çağırdı. Məmmədov içəri girən kimi İsrafilovun üzündən vəziyyətin nə yerdə olduğunu bildi. Öz-özlüyündə: «İsrafilovun qanı qaradır. Görünür işlər yaxşı getmir»-deyə fikirləşdi. Dərhal da:-Mən hazıram, yoldaş İsrafilov!-dedi.

İsrafilov əli ilə lap qabaqdakı stulu göstərib dedi:

-Gəl burda otur.

Məmmədov oturan kimi İsrafilov dedi:

-Bu saat şəhərə yola düşməlisən. Verilən məlumata görə bizim axtardığımız «VT» və «VQ» markalı maşınlar kənd inşaatı idarəsinin qarajlarındadır. Qarajları gəzərkən mənimlə əlaqə saxlayın.

-Baş üstə,-deyə Məmmədov cavab verdi. Sonra da soruşdu:-Yoldaş İsrafilov, bəs ünvan bürosu heç bir söz demir?

-Yox, onların cavabı kara gəlmir.

- Demək belə. Bu tərəfdən də bir şey çıxmadı.

-Bəli, ümid qaraja qalıb.

-Mən getdim,-deyə Məmmədov ayağa durdu. İsrafilovla xudahafizləşib otaqdan çıxdı.

İsrafilov Məmmədova ancaq bu sözləri dedi:

-Sənə müvəffəqiyyət arzu edirəm.

İsrafilov bu təcrübəli milis işçisini çox yaxşı tanıyırdı. Odur ki, Məmmədova əməliyyatı necə aparmaq haqqında tarşırıq verməyi artıq hesab etdi. Məmmədov gedəndən sonra İsrafilov başını əlləri arasına aldı, qarajdan sonra harada axtarış aparacaqları haqqında xeyli düşündü. Telefon zənginin səsi onu ağır düşüncələrin məngənəsindən xilas etdi. Danışan professor idi. Özü də ona şad xəbər verirdi. «Xəstənin vəziyyəti yaxşıdır. Güman etmirəm ki, bir də pisləşə. Böhran dövrü qurtardı».

-Bəs o, hansı maşından yıxıldığı haqda heç bir söz demir?
-Yox, deyir yıxılmağımın təqsiri ancaq özümdədir. Bu haqda milis idarəsi axtarış aparmasın. Onsuz da mən nə şoferi tanıyıram, nə də maşının nömrəsini bilirəm.
-Təki xəstə sağalsın. Qalan işlər qaydasında olacaq.
-Əlbəttə, buna söz ola bilməz.

Sonra İsrafilov professora xatırlatdı ki, biz hələlik xəstəni azad buraxmışıq, ancaq axtarışı davam etdiririk. Qoy həkimlər yeri düşdükcə onunla söhbət etsinlər, səhvini başa salsınlar, desinlər ki, o, susmaqla ağır bir cinayətin üstünü örtür.

Bu söhbət bir tərəfdən İsrafilovun kefini kökəltdisə, digər tərəfdən qanını qaraltdı. Xəstənin sözləri ona ağır gəldi. Sonra da fikirləşdi: «Yox, biz cinayətin üstünü açacayıq. Bunu xəstə istəsə də, istəməsə də açacayıq. Cinayət cinayətliyində qalır».

Yaxşı ki, vaxt gəlib çatdı. Milis işçiləri onun otağına toplaşdılar, iclas başlandı. Yoxsa İsrafilov bu haqda çox götür-qoy edəcəkdi.

## PASRORT TULLANMIŞDIR

İkinci gün idi ki, Məmmədov Bakıda idi. Ancaq bu müddətdə o bir dəfə də olsun rayona zəng vurmamışdı. Axı o, nə xəbər verəydi. Hələ heç bir şey öyrənməmişdi. Onların nömrələrindən şübhələndikləri maşınların heç biri qarajda deyildi, hamısı rayonlara yük aparmışdı. Qaraj direktoru deyirdi ki, maşınlar iki gündən sonra geri qayıdacaq. Bunu dürüst öyrənəndən sonra Məmmədov rayon milis idarəsinə zəng vurdu, İsrafilovla danışdı, vəziyyəti izah etdi. İsrafilov ona işlə əlaqədar olan bir tapşırıq da verdi. Məmmədov xəstənin evinə getməli idi. Bu, indi mümkün idi. Yaralı özü ünvanını demişdi.

Məmmədov dərhal tapşırığı yerinə yetirdi. Davud Nəsibovgilə getdi. Həyətin girəcəyində dərsdən gələn bir uşaqla rastlaşdı.

-Davud Nəsibovgil bu həyətdə yaşayır?

-Bəli,-deyə on bir-on iki yaşlarında olan oğlan ona nəzakətlə cavab verdi.

-Siz onu neyləyirsiniz?

-İşim var.

-Rayondadır. Ekspedisiyaya gedib.

-Sən onu tanıyırsan?

Oğlan gülümsünərək:

-Adam atasını tanımaz?!

-Bu nə yaxşı oldu,-deyə Məmmədov cavab verdi.- Demək sən onun oğlusan, hə?

Məmmədov oğlanın susduğunu görüb yersiz sual verdiyini duydu və dərhal da başqa söhbətə keçdi.

-Yaxşı, sənin adın nədir?

-Nəsib.

-Nəsib, oğlum, gəl tanış olaq. Mənim də adım Məmməd, familiyam da Məmmədovdur. Atanın yanından gəlirəm. Dedi evimizə xəbər ver ki, məndən nigaran qalmasınlar. Bir neçə gün gecikəcəyəm.

Nəsib elə bil bu sözə bənd imiş. Dərhal götürüldü, həyətdəki taxta pilləkənlə üzüyuxarı, ikinci mərtəbəyə qaça-qaça qışqırdı:

-Nənə, atamın yanından adam gəlib! Atamın yanından adam gəlib!

Səsə altmış beş-yetmiş yaşlarında bir arvad çıxdı:

-Bala, hanı? Çağır gəlsin...

Nəsib özünü itirmiş halda:

-Əmi, yuxarı gəl. Nənəm çağırır.

Məmmədov söhbətə haradan başlayacağı barədə fikirləşə-fikirləşə ikinci mərtəbəyə qalxdı. Salam verdi, çox sakit, təmkinli səslə dedi:

-Ana, gəldim deyim ki, narahat olmayın. Davud bir neçə gün gecikəcək. İşləri çoxdur. Yeni bir qazıntı yeri tapıblar.

-Oğlum, nə yaxşı gəldin,-deyə nənə ona oturmaq üçün yer göstərdi.
-Nigarançılıq çəkirdim. Həmişə o, üç-dörd gündən bir zəng vurar, hal-əhval tutardı. Bu dəfə bilmirəm nə olub. Gedəndən səs-səmiri çıxmır.
Bu vaxt Nəsib incik-incik dedi:
-Mən onu dindirməyəcəyəm. Anadan olduğum gündə zəng də vurmadı. Hələ demişdi gələcəyəm.
-Doğrudan ha, bu mənim yadımdan çıxmışdı,-deyə nənə əlavə etdi.
Məmmədov dedi:
-Yerləri pisdir. Dağdadırlar. Rayon mərkəzindən çox uzaqdırlar. Bir az da soyuqlamışdı.
Nənə və nəvə bu sözü eşidən kimi təlaş keçirdilər. Nənə soruşdu:
-Bəs indi necədir?
-Yaxşıdır, narahat olmayın.
-Ürəyimə dammışdı, hey onu yuxuda görürdüm.
-Mən də bir neçə dəfə görmüşəm,-deyə Nəsib əlavə etdi.
-Yadındadır, nənə? Bir dəfə sənə də danışdım, gördüm ki, atam yıxılıb, xəstəxanaya aparıblar.
-Hə, yadımdadır,-deyə nənə onun sözünü təsdiq etdi.
Məmmədov uşağın yuxusuna təəccüb qaldı. Daha heç bir söz demədi. Fikrə getdi, öz-özlüyündə düşündü: «Ürəkdən-ürəyə yol var». Nənə sükutu pozdu:
-Demədi nə vaxt gəlir?
-On gün-zad çəkər.
-Heç atam bu qədər gecikməmişdi.
-Hökumət işidir də,-deyə nənə əlavə etdi. Nəsibə ürək-dirək verdi. Məmmədova Davudun lap uşaqlıqdan qazıntı işləri ilə maraqlandığından danışdı. Sonra ona bir albom gətirib göstərdi. Bu albomdakı şəkillər, qəzetlərdən, jurnallardan kəsilmiş məqalələr onun məşhur bir arxeoloq olduğundan bəhs edirdi. Gör, o, Azərbaycanın nə qədər yerində qazıntı işi aparmış, xalqımızın qədim tarixinə aid elmi məsələləri izah etmişdi.

Məmmədov albomu vərəqlədikcə onun işinə heyran olurdu. Bu sadə, təvazökar insan gəlib onun gözləri qarşısında dururdu.

-Davud məni o qədər nigaran qoyub ki,-deyə nənə səsləndi.-Başı ki, işə qarışdı, özü də yadından çıxır, hətta çörək yeməyi də unudur.

-Ana, həqiqi elm adamları belə olur. Onlar özləri üçün deyil, xalq üçün yaşayırlar. Özləri yanırlar, başqaları üçün işıq saçırlar.

-Elədir, oğlum, elədir,-deyə nənə cavab verdi. Sonra Məmmədovdan razılıq etdi.-Yaxşı ki, bu gün sən Davuddan xəbər gətirdin. Yoxsa yoldaşı sabah akademiyanın ekspedisiyası işləyən bütün rayonlara teleqraf vuracaqdı. O da hələ məlum deyildi ki, Davudu tapacaqdılar, ya yox. Yoldaşı tez gəlsin ondan muştuluq alım.

-Mən də muştuluğa şərikəm ya yox?-deyə Məmmədov zarafat etdi.

-Muştuluq nənəmə düşmür, sənə düşür,-deyə Nəsib cavab verdi.

-Məmmədov durub getmək istəyəndə nənə qoymadı.

-Bir stəkan çay iç,-dedi.

-Başım söhbətə o qədər qarışdı ki, çayı da unutdum. Uzaq yoldan gəlmisən, aclığın olar.

-Yox,-deyə Məmmədov etiraz etdi.

-Ancaq nə nənə, nə də Nəsib qoymadılar.

-Çay içməsən buraxmarıq,-dedilər.

-Məmmədov oturub çay içəndə aşağıdan bir arvad ucadan çağırdı:

-Nəsib! Nəsib!

-Gəldim! Gəldim!-deyə Nəsib cəld həyətə düşdü. Nənə dedi:

-Poçtalyonumuzdur. Həmişə gələndə Nəsibi çağırır. Bütün bu ikinci mərtəbənin qəzet, jurnallarını Nəsib paylayır.

-Çox yaxşı iş görür,-deyə Məmmədov dilləndi.

-Bu vaxt Nəsib içəri girdi, qəzetləri stolun üstünə qoyub, nənəyə bir zərf uzatdı:

-Məktub atamın adınadır. Gör nə qalındır,- dedi.

-Nənə zərfi açdı. Onun içərisindən Davudun pasportu, ezamiyyət vəsiqəsi və balaca bir kağız çıxdı. Nənə dərhal kağızı oxudu «Mənim adım Rzaquludur. Sülh küçəsindəki 715 nömrəli evdə yaşayıram».

-Bu nədir?-deyə o, təəccüblə Məmmədovun üzünə baxdı.

-Məmmədov özünü itirmədən, gülə-gülə cavab verdi:

-Nə yaxşı oldu,-dedi.-Davud bərk narahat idi, deyirdi ki, şəhərdə itsə tapıb göndərərlər. Dağda düşsə heç nə. Kim bilir külək aparıb hansı dərəyə salacaq. Sağ olsun Rzaqulu.

-Nənə pasportu açıb oğlunun şəklinə diqtətlə baxdı. Gözlərinə inanmadı.

-Bu ləkələr qana oxşayır.

-Ver mən də baxım,-deyə Nəsib cəld pasportu nənəsindən aldı.

-Siz nə danışırsınız, ay ana, mən boyda adama inanmırsınız. Pasportdur, yerə düşüb çirklənib, elədir, Nəsib?

-Elədir,-deyə Nəsib cavab verdi. O, özünü yaxın adam kimi aparan Məmmədova inanmaya bilməzdi.

-Bir də fikir verin, burada bir şey olsa idi, həmin adam heç adını yazardı? Əlbəttə, yox. İstəsəniz həmin ünvana gedib soruşa bilərsiniz. Məncə bu artıqdır. Bax, mən sabah rayona yola düşürəm. Çatan kimi Davudun yanına gedərəm. Deyərəm bərk nigaransınız. Evə zəng vursun. Oldu? Daha sözünüz yoxdur ki?

-Yox, bala, səndən bircə xahişim budur. De bizimlə danışsın.

-Yaxşı, oldu. O kağızı da verin Davuda çatdırım. Kişiyə kağız yazsın. Minnətdarlığını bildirsin.

-Al, bala,-deyə nənə kağızı verdi.

-İcazə olsa gedərəm.

-Buyur, yaxşı yol. Nəsib, əmini yola sal.

-Nəsib Məmmədovun əlindən tutub həyət qapısına qədər getdi. Ayrılanda dedi:

-Atama de ki, ondan küsmüşdüm, amma xəstələndiyi üçün barışdım. Qoy tez gəlsin. Sabah zəng eləsin ha?..

-Baş üstə!-deyə Məmmədov ona pioner salamı verdi.

-Nəsibin bu şən, gülərüz adamdan xoşu gəldi. Odur ki, dalınca qışqırdı:

-Tez-tez bizə gəl!

-Məmmədov dönüb geri baxdı, əlini havada yellədi və bununla ona dedi: «Gələrəm! hökmən gələrəm!»

-O, cəld taksi maşınına minib «Sülh» küçəsinə sürdürdü. Gözəl, bişmiş xətlə yazılmış bu kağız onu şübhələndirmişdi. Görəsən, doğrudanmı şoferin adı Rzaquludur? Bu məktubu o yazmışdır? Bəlkə cinayətkar şofer həmin pasportu şəhərdə tullamış və onu Rzaqulu adlı bir adam tapmışdır.

-Budur, maşın gəlib 715 nömrəli binanın qabağında dayandı. Məmmədov maşından düşüb həyətə girdi. Birmərtəbəli evlərdən ibarət olan bu həyətdə ona qədər ev vardı. O, elə ilk qarşılaşdığı adamdan Rzaqulunu soruşdu. Aldığı cavab onun mühakimələrini təsdiq etdi.

- Rzaqulu burada yaşayır, təqaüdçüdür. Özü də köhnə inqilabçılardandır. Dünən Jeleznovodskaya müalicəyə gedib.

-Demək, pasport tullanmışdır.

## ŞOFER ZEYNALOVUN MƏKTUBU

Səhər lap tezdən milis leytenantı Məmmədov qaraja gəldi. Dünən boş görünən bu nəhəng qarajda indi yan-yana yüzdən artıq maşın dayanmışdı. Qarajla üzbəüz olan yuyucu məntəqəsinin qabağında çoxlu maşın vardı. Şoferlər bir-birlərinə kömək edir, maşınları yuyurdular. Şlanqlardan maşına dəyən təzyiqli suyun səsi, şoferlərin ucadan söhbətləri, şən zarafatları bir-birinə qarışır, ağız deyəni qulaq eşitmirdi. Qaraja maşın ardı-arası kəsilmədən gəlirdi. Məmmədov bu səhnəni seyr edə-edə qaraj direktorunun otağına yollandı. Buradakı birmərtəbəli otaqlarda da çoxlu adam var idi. Kimi kassa qabağında durub pul alır, kimi yol vərəqələrini təhvil verir, kimi məzuniyyətə getmək haqqında ərizə yazırdı. Bu vaxt kimsə direktorun

otağından çıxdı, qapı aralı qaldı. Direktor Hətəmov milis leytenantı Məmmədovu görüb onu içəri dəvət etdi.

-Yoldaş Məmmədov, içəri buyurun!

-Məmmədov kabinetə keçib Hətəmovla görüşdü, yanda qoyulmuş bir stulda oturdu. Qabağındakı kağızlara qol çəkə-çəkə dedi:

-Həmin iş üçün gəlmisiniz, bu saat durub qarajı gəzərik.

- Mən tələsmirəm, işinizi görün,-deyə Məmmədov cavab verdi.

-Kimsə qapını taqqıldatdı.

-Gəl,-deyə Hətəmov ucadan çağırdı. Sonra da əlavə etdi.

-Qapının döyülməsindən bilirəm ki, Yusifdir. Çox mədəni, səliqəli oğlandır. Kaş bütün şoferlər ona oxşayaydı. Özü də işləyə-işləyə əlaçı oxuyur.

-Harada?

-Politexniki institutda.

-İçəri hündürboylu, qoltuğunda kitab olan, səliqəli geyinmiş bir oğlan girdi.

-Dinləyirəm, Yusif.

-Yoldaş Hətəmov, gəldim ki, mənə üç günlüyə vaxt verəsiniz.

-Nə olub?

-Yoldaş Hətəmov, vacib işim var.

Hətəmov diqqətlə Yusifi süzdü. Həmişə şən görünən Yusifin üzündə gizli bir kədər var idi. Bu direktoru şübhələndirdi. Amma sonra fikirləşdi ki, bəlkə Yusif yorğundur, ona görə belə görünür.

-Məndən gizlindir?

-Siz bilirsiniz ki...

-O, nə isə demək istəyirdi ki, sözünü yarımçıq kəsdi.

-İcazə verin gedim, bir azdan gəlim.

-Yaxşı, get. Məmmədovla bir az işimiz var, qurtaran kimi səni çağırtdıraram.

-Yusif otaqdan çıxarkən Məmmədov ona diqqətlə baxdı. Məmmədovun çekist gözləri fikrə getdi. Bu, Hətəmovun da nəzərindən qaçmadı.

-Yusif qızıl oğlandır,-deyə Məmmədovu düşüncədən ayırdı. Bir neçə kağıza da imza atıb ayağa durdu.

-Gedək maşınlara baxaq.

-Baxaq.

-Ancaq hamısı deyildir. Qalanları da sabah burada olacaq.

-Eybi yoxdur. Belə işdə tələsmək lazım deyil.

-Onlar maşınlara baxdılar. Məmmədova lazım olan maşınların əksəriyyəti burada idi. O cibindən bloknotunu çıxarıb 3 və 8 rəqəmlərindən ibarət olan bütün maşınların nömrələrini yazdı.

-Bu gün yeddi şoferlə söhbət edə bilərik. Elə deyilmi?

-Necə istəsəniz, elə də edərik,-deyə Hətəmov cavab verdi.

-Gəlin, oturun mənim kabinetimdə, adamları bir-bir çağıtdırım.

-Bəlkə başqa bir yer seçək. Sizə mane olmasın.

-O da ağıllı fikirdir. Bizim partkomun kabinetini verərəm sizə. Özü də burada yoxdur, otaq boşdur.

-Yaxşı. Əgər bir-iki saatlıq olsa idi, elə sizin otaqda da oturardım. Ancaq bilirəm ki, uzun məsələdir. Sorğu-sual çox çəkəcək. Çoxdan olan işdir, kim boynuna alacaq. Nə şahid var, nə sübut. Adam var elədiyi işi məhkəmədə danır.

-Sizin iş doğrudan da çətindir,-deyə Hətəmov dilləndi.

-Hətəmov milis zabitini həyətin yuxarı başında ağaran qoşa binaya apardı. Onlar gəlib tənha əncil ağacının yanından keçəndə, kölgəlikdə bir nəfərin başını əlləri arasına alıb dərin fikrə getdiyini gördülər. Məmmədov onu tanıdı.

-Yoldaş Hətəmov, mən bu oğlandan şübhələnirəm,-dedi.

-Yox, elə şey ola bilməz, mən onun üçün zamin duraram,-deyə Hətəmov inamla dilləndi. Məmmədov soruşdu:

-O, hansı maşını sürür?

-Otuz səkkiz həştad səkkizi. İstəyirsinizsə çağırım.

-Yox, birdən xatirinə dəyərik. Bəlkə də ona qədər cinayətin üstü açıldı.

-Məsləhət sizindir.

-Hətəmov soldakı qapını açıb Məmmədova dedi:

-Bax, bu da sizin otağınız. Siz oturun, mən də adamları təşkil edim.

-Məmmədov zarafatla:

-Ancaq tez bir nəfər göndərin ki, darıxmayım.

-Oldu.

-Hətəmov bir neçə addım getmişdi ki, birdən geri dönüb Məmmədova dedi:

-Xahiş edirəm o nömrələri yazıb mənə verəsiniz.

-Məmmədov bloknotundan bir vərəq cırıb bayaq yazdığı maşın nömrələrini ora köçürdü.

- Buyurun,-deyə vərəqi ona uzatdı.

-Hətəmov də həmin kağızı gətirib birbaş qaraj növbətçisi olan mexanikə verdi.

-Təcili olaraq bu nömrəli maşınların şoferlərini partkomun kabinetinə-milis leytenantı Məmmədovun yanına göndərin. Bildin? Gərək ki, hamısı həyətdədir.

-Xeyir ola?-deyə növbətçi soruşdu.

-Milis nəfərləri gəlib bizə mükafat verməyəcək ki, işləri var. Sonra bilərsən.

-Bu dəqiqə təşkil edərəm.

-Növbətçi kağızı kassanın qabağında ucadan oxudu.

-Uşaqlar, eşitdiniz? Həmin nömrəli maşınların şoferləri təcili olaraq partkomun otağında oturmuş milis leytenantının yanına getsinlər.

-Nə üçün?-deyə şoferlərdən biri soruşdu. Lap arxada dayanmış bir nəfər növbətçi mexanikə macal vermədən kinayə ilə dedi:

-Alnınıza imperial yarışdıracaqlar.

-Biz imperialımızı sənə bağışlayırıq,-deyə milis leytenantının yanına çağırılan şoferlərdən biri cavab verdi.

-Mexanik onları sakitləşdirdi:

-Yaxşı, di tez olun gedin, kişi sizi gözləyir.

-Gəlin görək, - deyə kök bir oğlan qollarını tovlaya-tovlaya qabağa düşdü.

Hamı gedib partkomun otağının qarşısına yığışdı. Milis leytenantı bir-bir onları yanına çağırdı, söhbət etdi. Üç saat çəkən bu sorğu-sual zamanı o, heç kimdən şübhələnmədi. Qaraj növbətçisi onun yanına gəlib soruşdu:

-Hamı söhbətə gəldi?

-Milis leytenantı bloknotunu vərəqləyib:

-Təkcə bir nəfərdən başqa.

-O kimdir? Nömrəni de, bu saat çağırım.

-Nömrəni?.. Otuz səkkiz həştad səkkiz.

-Onunla söhbət etməsəniz də olar.

-Nə üçün?

-Çünki, onun əlindən bir xəta çıxsa özü gəlib deyər.

-Hər halda görüşsək yaxşı olar. Şübhə yeri qalmaz.

-Nə deyirəm ki, indicə onu da tapıb göndərərəm. Qaraj növbətçisi otaqdan çıxan kimi rast gəldiyi bütün adamlara dedi:

-Yusifi görsəniz deyin partkomun otağına getsin. Özü isə kefi kök halda birbaş direktorun yanına yollandı. Daha o, heçnədən nigarançılıq çəkmirdi. Demək, milis leytenantının axtardığı hadisə onların qarajı ilə bağlı deyildir. Bax, onu sevindirən, fərəhləndirən də bu idi.

-Qaraj növbətçisi direktorun otağına girəndə Yusifi burada gördü. Zarafatla dedi:



-Ə, Yusif, milis leytenantı səndən yaman şübhələnir. Dur get, gör nə deyir.

-Yusif pörtdü, heç bir söz demədən ayağa durdu, qapıdan çıxanda direktor onu çağırdı:

-Bir dayan görüm.-Sonra da qaraj növbətçisinə:-Yusif işləri yaman korlayıb,-dedi.

-Növbətçi təəccüblə soruşdu:

-Necə, korlayıb?

-Hətəmov nə isə demək istəyirdi ki, telefon aramsız olaraq zəng çaldı. O, dəstəyi qaldırdı.

-Bəli, qarajdır... Milis leytenantı Məmmədov buradadır. Yusif Zeynalov?.. İşləyir. Elə indicə yanımdadır. Danışan kimdir? Milis idarəsinin rəisi? Çox gözəl. Bu saat Məmmədovu çağırtdıraram.

Hətəmov söhbətə ara verib dedi:

-Yusif tez get, Məmmədova de ki, rəisi telefona çağırır.

-Yusif cəld otaqdan çıxdı. Hətəmov söhbətinə davam etdi:

-Adam göndərdim, bu saat gəlir. Yoldaş rəis, yaralı necədir? Yaxşıdır? Bax bu gözəl oldu. Yusifin işini necə edəcəyik? Çox düz oğlandır. Görürsünüz də, kim cinayəti boynuna alar? Özü burada həm mənə deyib, həm də sizə yazıb. Onun günahından keçmək lazımdır. Böyük ailəsi var. Xeyr, evli deyil. Atası keçən il ölüb. Yeddi baş xırda uşağa baxır. Xahiş edirəm.

-Bu ara milis leytenantı gəldi, dəstəyi alıb dedi:

-Milis leytenantı Məmmədov sizi dinləyir. Yaxşıyam, çox sağ olun. Bəli! Bəli!.. Yusif Zeynalov? Bu saat onunla səhbət edəcəyəm. Rayona gətirim? Özü boynuna alır? Baş üstə. Bu gün çıxarıq.

-Məmmədov dəstəyi yerə qoyan kimi Hətəmova:

-Gördünüz də, gözlərim məni aldatmır.

Məmmədovun nəyə işarə vurduğunu duyan Hətəmov dedi:

-Yusif də heç zaman bizi aldatmayıb.

Hətəmovun incidiyini görən Məmmədov gülə-gülə:

-Zarafat edir,-dedi.

Hətəmov əlavə etdi:

-Onda mənim də sözlərimi zarafata çıx.

-Oldu.-deyə Məmmədov cavab verdi. Sonra da əlavə etdi.

-İcazə verin Yusiflə gedək.

-Buyurun!

Bu zaman Yusif gözləri dolmuş halda cibindən bir kağız çıxarıb direktora uzatdı:

-Yoldaş Hətəmov, mən hadisənin necə olduğunu bu kağızda yazmışam. Milis idarəsinə göndərdiyimin üzüdür. Deyirəm, siz də oxuyub tanış olun. O ki, qaldı bu işi milis idarəsinə gec xəbər verməyimə, buna görə nə istəyirlər etsinlər. Təqsirkaram. Yusif qəhərləndi:

-Sizi biabır etdiyimə görə üzr istəyirəm.

Milis leytenantı və Yusif xudahafizləşib otaqdan çıxdılar. Hətəmov Yusifin verdiyi kağızı, mexanik də eşitsin deyə, ucadan oxumağa başladı:

-«Hörmətli milis rəisi! Karvan keçidində baş verən hadisənin günahkarı mənəm. O gündən mənim nə gecəm var, nə də gündüzüm. Vicdanın güclü əlləri məni bir məngənə kimi boğur. Nə üçün mən həmin adama kömək etmədim? Onu kimsəsiz halda dağların qoynunda yaralı qoyub getdim. Bu işi yalnız qorxaqlar edərlər. Ancaq qorxaq, şərəfsiz olub yüz il yaşamaqdansa mərdanəlik edib təqsirini boynuna almaq, həbsxana divarları arasında ömür sürmək daha şərəflidir. Bu günlərdə işdən icazə alıb rayona gəlirəm. Ünvanım belədir: «Bakı, Babək küçəsi, 612. İş yerim kənd tikinti idarəsinin 1 nömrəli qarajıdır.

-Şofer Yusif Zeynalov.

Hətəmov kağızı stolun üstünə qoydu.

-Daha sözün yoxdur ki,-deyə mexanikə müraciət etdi.-Hamısını yazıb.

-Mexanik fikirli-fikirli Hətəmova baxdı, sonra dedi:

-Yusifdən gözləməzdim!..

## GÖRƏSƏN MƏHKƏMƏ DƏ BAĞIŞLAYACAQMI?

Şofer Yusif Zeynalov rayon milis idarəsində də hər şeyi boynuna aldı. Mən hər cür cəzanı qəbul edirəm,-dedi. Sizə gec xəbər verməyimin əsas səbəbi

ailəmiz olub. Mən balaca uşaqlar üçün qorxmuşam. Qorxmuşam ki, mən tutulsam onlar ac qalarlar. Ailədə məndən başqa çörək gətirən yoxdur. Mən evdə də anama bu məsələni danışmışam. O, da deyib ki, bala gizlətmə, necə olub yerli-yerində danış. Anam üçün ağır olsa da işə girib. İndi bilirəm ki, uşaqların çörəyi olacaq. Mənə iş kəsin, gedim cəzamı çəkim.

-Milis rəisi İsrafilov onu dinlədikdən sonra stolun siyirtməsini çəkib bir kitab çıxartdı və Yusifə göstərib soruşdu:

-Bala, bu kitab haqqında nə deyə bilərsən?

-Mən özümdə olmadığım üçün kitabın adı yadımda deyil. Ancaq onu deyə bilərəm ki, yaralının yanına bir kitab düşmüşdü. Mən onu götürdüm və hirsləndiyim üçün tulladım.

-Nədən hirslənmişdin?

-Nə üçün bu hadisə mənim başıma gəldi. Axı mən heç kimə pislik etməmişəm. Həmin adamın xahişini də ancaq yaxşılıq naminə yerinə yetirdim. Əgər sağ olsa idi, özü də bunu inkar etməzdi. Hətta ona dedim ki, mənə bir qəpik pul lazım deyil.

-O, sağdır, səninlə görüşəcək.

-Sağdır?-deyə Yusif sevinclə ayağa durdu.-Mənə bundan artıq heç nə lazım deyil. İndi nə istəyirsiniz edin.

-Biz sənin işini məhkəməyə verəcəyik. Orada haqqında hökm çıxaracaqlar. Ancaq biz bəzi şeyləri aydınlaşdırmaq istəyirik. Bəs onun sənədlərini kim götürüb?

-Mən...

-Nə üçün?.

-Çünki gördüm o ölüb. Dünya başıma dolandı. Dedim yəqin uşaqları var, yetim qaldı. Belə qərara gəldim ki, ömrü boyu işləyəcəyəm, onun ailəsini dolandıracağam. Sənədləri bu niyyətlə götürdüm.

-Sonra nə oldu? Kitab kimi tulladın, hə?

-Yox, onları şəhərdə itirdim. Mənə inanın. Ancaq pasportu azı yüz dəfə vərəqləyib oxumuşdum. Ünvanı, uşağının, yoldaşının adını ürəyimə yazmışam. Heç vaxt itirə bilmərəm.

-Demək, bu cinayətdə sən özünü təqsirkar bilirsən, eləmi?

-Bəli.

-Onda buraya qol çək,-deyə İsrafilov ona bir kağız uzatdı.

-Yusif həmin kağızı oxuyub imzaladı. Bu ara milis leytenantı Məmmədov qapını açıb içəri girdi.

-Yaralı necədir?-deyə İsrafilov ona müraciətlə soruşdu.

-Kefi kökdür. Şoferi görmək istəyir.

-İzahatı necə, yazıb?

-Özü qəribə adam olduğu kimi, izahatı da qəribədir,-deyə Məmmədov uzun bir vərəqi ona verdi. İsrafilov izahatı ürəyində oxumağa başladı: «Şənbə günü idi. Səhər saat 4 radələrində mən «QAZ-69» maşınımızla yola çıxdım. Şoferdən xahiş etdim ki, məni dəmiryol stansiyasına çatdırsın. Həmin gün oğlum Nəsibin 12 yaşı tamam olurdu. Biz bir qədər getdikdən sonra maşın xarab oldu. Nə qədər çalışdıqsa da, düzəlmədi. Mən tələsdiyim üçün yola çıxdım. Çoxlu maşın keçməsinə baxmayaraq heç biri məni götürmədi. Əl qaldırmaqdan yoruldum. Nəhayət bir maşın gəldi, çox xahişdən sonra məni götürdü. Kuzovda iri yeşiyin üstündə oturdum. Hava çox xoş idi. Ətrafı seyr edirdim. Axı mən təbiət vurğunuyam. Ətraf necə də gözəl idi. Biz bir qədər getdik. Birdən maşın dönərkən məni atdı. Ayılıb özümü xəstəxanada gördüm. Bu işdə heç kimin günahı yoxdur. Yalnız mən özüm təqsirkaram. Bunun da cəzasını çəkmişəm. On səkkiz gün xəstəxanada yatmışam. Xahiş edirəm, mənə görə heç kimi cəzalandırmayın»...

-İsrafilov izahatı oxuyub stolun üstünə qoydu. Yusifi xeyli gözaltı süzdükdən sonra Məmmədova dedi:

-Həkimlər icazə verir?

-Bəli. Professorla da görüşdüm. Deyir bu günlərdə evə buraxacayıq.

-Gedin,-deyə İsrafilov dilləndi. Onsuz da Yusif xəstə ilə görüşməlidir.

-...Məmmədovgil qapıdan çıxanda Yusif özünü çox narahat hiss etdi. Ayaqları dalınca gəlmirdi. Axı, o, yaralının yanına nə üzlə getsin? Ona nə desin? Ancaq çarə yox idi. Bu iş görülməli idi. O, ağır addımlarla xəstəxanaya yollandı. Nədənsə onun bu həyəcanlarını Məmmədov sezmirdi. Buna görə də yolda ona dedi:

-Yusif, yorulmusan nədir? Bir az tələs.

-Yusif bütün iradəsini toplayıb addımlarını yeyinlətdi. Fikirli olduğundan xəstəxanaya nə vaxt çatdığını, ikinci mərtəbəyə necə çıxtığını belə bilmədi. Məmmədov qapını açıb palataya girəndə o, kandarda dayandı.

-Gəl-gəl, səni çağırtdırıb,-deyə Məmmədov onun sözünü yarımçıq kəsdi.

-Yusifin başı hərləndi. Ona elə gəldi ki, bu dəqiqə yıxılacaq. Bunun üçün də kandardaca divara söykənib dayandı. Məmmədov onu xəstəyə təqdim etdi.

-Şofer Yusif Zeynalov sizin qarşınızdadır.

-Xəstə azca özünü yuxarı çəkib balışa dirsəkləndi,dedi:

-Yusif, bir az yaxın gəl.

-Yusif başını yuxarı qaldırmadan irəli addımladı. Xəstə sözünə davam etdi:

-Mən eşitmişəm ki, sən yaxşı işçisən, yaxşı oğlansan. Ancaq bir sualıma cavab ver. Məni ölüm ayağında qoyub qaçandan sonra vicdan əzabı çəkmisənmi?

Yusif xeyli vaxt bu suala cavab verə bilmədi. Elə bil onun çənəsini kilidləmişdilər. Gözlərindən axan yaş damlaları süzülüb yanaqlarına töküləndə əsəbləri sakitləşdi. Dili açıldı.

-Mən bu hərəkətimə görə ömrüm boyu əzab çəkəcəyəm. Çünki, mən öz əqidəmin əleyhinə getmişəm. Mənim üçün həyatda çətinə düşənə kömək etməkdən böyük iş yoxdur. Ancaq mən sizi qoyub qaçmışam. Buna görə də lazımı cəzanı çəkməliyəm. Mən ölməliyəm. Mənə qarşı sərt olun.

-Xəstə diqqətlə onu süzdü. Yusifin əzabdan yorulmuş üzü, kədərli gözləri, onun onsuz da yumşaq olan ürəyini kövrəltdi.

-Mən hər şeyi sənə bağışlayıram,-dedi.-Ancaq bir də belə səhvlərə yol vermə...

-Bizim bağışlamağımız azdır,-deyə milis leytenantı dilləndi.-Görək xalq məhkəməsi də bağışlayacaqmı? Cinayət cinayətliyində qalır.
-Cinayəti törədənlər də adamlardır, onu aradan qaldıranlar da!

## HƏYATDA ƏN BÖYÜK MÜKAFAT

Səhər uşaqlar birinci dərsdən sonra tənəffüsə çıxanda məktəb radio qovşağından bu sözləri eşitdilər:
-«Diqqət! Diqqət! Dəstə və manqa rəhbərləri! Dəstə şurasının üzvləri! Bu gün birinci növbə ilə ikinci növbənin arasında drujinanın təntənəli pioner xətti keçiriləcəkdir. Bütün dəstələr idman salonuna toplaşmalıdır.
-Mühüm xəbər var! Mühüm xəbər var!
-Drujina şurası.
Balaca diktorlar bu sözləri özlərinə məxsus bir hiss və həyəcanla oxuduqca uşaqların da maraqı artırdı. Hamı bir-birindən təəccüblə soruşurdu: «Bilmirsən nə var?»
Heç kim heç nə bilmirdi. Drujina şurası üzvləri bu xəbəri gizli saxlayırdılar. Hətta hər işə baş soxub öyrənən Cabir də, Kamil və Səlim də mat qalmışdılar. Buna görə də onlar vurnuxur, pıçıldaşır, amma faydası olmurdu. Aslan da onlara göz qoyur, hərdən Muxtara deyirdi:
-Bir bunlara bax, gör nə əl-ayağa düşüblər.
-Eh, fikir vermə.
-Çox güman ki, Cabirgil dərsdə də bu haqda düşünürdülər.
-Kim bilir, onlardan nə desən çıxar.
-Muxtar dördüncü dərsdən sonra yoldaşları ilə məktəb həyətinə enəndə pioner baş dəstə rəhbəri Elmira onu çağırdı:
-Elanı eşitdin də? Dərsdən sonra bir yana getmə ha!
-Yox buradayam. Mən heç vaxt toplanışdan qaçmamışam.
-Bilirəm. Yadına salıram da, deyirəm birdən...

-Yox, yox, yadımdan çıxmaz,-deyə Muxtar cavab verdi.

-Bunu görən Cabir dərhal Muxtarı yanladı:

-Yoldaş Elmira nə dedi?

-Heç nə.

-Demə, guya böyük işdir.

-Bilməsən qarnın ağrıyar?-deyə Aslan kinayə ilə söylədi.

-Sən öz qarnının dərdini çək. İdmanda yıxıldın, sıyrılıb qanadı.

Muxtar Cabirin pərt olduğunu görüb Aslanın qolundan dartdı. Bu vaxt zəng vuruldu. Uşaqlar siniflərə axışdılar.

-Beşinci dərs qurtaran kimi altıncıların dəstə şurası uca səslə uşaqları cərgəyə düzülməyə çağırdı. Hamı gedib öz manqa rəhbərinin arxasında dayandı.

-Tələsin, qoy hamıdan tez təntənəli xəttə biz gedək!

Ancaq dəstə şurası sədrinin dediyi kimi olmadı. Onlar sinifdən çıxanda üçüncü və dördüncü dəstələrin uşaqlarını qabaqlarınca gedən gördülər. Əgər təkcə bunlar olsaydı, dərd yarı idi. Üçüncü olmaq da risk deyildi. Lakin idman salonuna onlar beşinci çatdılar. Bir az da ləngisə idilər, lap axırıncı olacaqdılar.

Çox çəkmədi ki, drujinanın bütün pioner dəstələri salona yığışdı. Drujina şurasının sədri Etibar farağat komandası verdi. Hamı sakitləşdi.

-Uşaqları təəccüb bürüdü. Bu gün səhərdən radio qovşağının onları aramsız olaraq çağırdığı təntənəli xətdə uşaqların «böyük» adlandırdıqları adamlardan heç biri yox idi. Hətta pioner baş dəstə rəhbəri də gəlməmişdi.

Etibar dərhal bu fikri uşaqların üzündən oxudu. Ürəyində fikirləşdi: «Dayanın, bir az da dayanın, görün bizə kimlər gələcək». Elə bu vaxt qapı tərəfdən səs eşidildi. Uşaqlar farağat komandasında olsalar da azca başlarını yana çevirib baxdılar. Lap qabaqda məktəb direktoru ilə milis idarəsinin rəisi İsrafilov, onların arxasınca milis leytenantı və pioner baş dəstə rəhbəri Elmira gəlirdilər. Onları görən Aslan daldan əli ilə Muxtarın kürəyinə bir yumruq vurdu. Muxtar səndələdi, lakin özünü o yerə qoymadı.

Qonaqlar gəlib uşaqlarla salamlaşdılar və keçib lap cərkənin baş tərəfində dayandılar. Pioner baş dəstə rəhbəri Elmira Muxtara «İki addım qabağa çıx!» komandası verdi. Sonra onun göstərişinə əsasən Etibar drujina şurasının qərarını oxudu:

-«Karvan keçiddəki hadisə ilə əlaqədar olaraq xüsusi qoçaqlıq göstərdiyinə və arxeoloq Davud Nəsibovun həyatını xilas etdiyinə görə beşinci dəstənin pioneri Muxtar Zahidova təşəkkür elan edilsin.

-Drujina bayrağı qarşısında onun şəkli çəkilsin, fəxri lövhəyə vurulsun! Dəstədə onun haqqında görülmüş tədbir əsassız sayılsın!»

-Hər tərəfdən əl çaldılar. Cabir, Hüseyn, Səlim başlarını aşağı dikib durmuşdular.

-Muxtar haqda səhv fikirdə olan və həmişə onun əleyhinə gedən Kamil isə, heç nə olmayıbmış kimi, uşaqlara baxıb gülürdü. Onun bu hərəkəti Solmazı hirsləndirdi, qız üz-gözünü turşudub ona baxdı. Bayaqdan sırtıq-sırtıq gülən Kamil ciddi görkəm aldı.

-Etibardan sonra milis idarəsinin rəisi İsrafilov danışdı. O, Muxtarı təriflədi. Bütün drujina pionerlərini onun kimi sayıq, qorxmaz və qayğıkeş olmağa çağırdı.

-Bu balaca oğlanın insanlara məhəbbətlə dolu böyük ürəyi var,-dedi.-Davud Nəsibovun işi ilə əlaqədar cinayətin açılmasında bizə yaxından kömək etdiyinə görə milis idarəsi onu fəxri fərmanla təltif edir. Ona xatirə olaraq üstü yazılı bir qol saatı bağışlayır. Uşaqlar, milis idarəsi Muxtarın dostu, Səmədabadlı pioner Qambay Nəcəfzadəni də mükafatlandırmağı qərara almışdır. Qambayın tapdığı kitabın bizə çox köməyi dəymişdir. Sabah Səmadabad məktəbində də belə bir təntənəli toplanış keçirəcəyik.

-Söhbətdən sonra İsrafilov uşaqların salonu titrədən gurultulu alqışları altında fəxri fərmanı və qol saatını Muxtara verdi, onun əlini sıxdı, başını tumarlayıb alnından öpdü.

-Muxtar cərgəyə çəkilib uşaqlarla bir sırada dayananda qol saatını Aslana verdi. Yox, istəmirəm.

-Yaxşı, bağışlamıram, al saxla.

-Aslan saatı alıb qürurla cibinə qoydu. Bildi ki, Muxtar saatı ona nə üçün verir. Axı Muxtara görə o, az əziyyət çəkməyib, az uşaqla üz-göz olmayıb. Qoy drujina uşaqları görsünlər ki, Muxtar da Aslanı çox sevir.

-Həmin gün məktəb direktoru da, pioner baş dəstə rəhbəri də çıxıb getdilər. Muxtarın əlaçı, intizamlı bir şagirdi olduğunu göstərdilər. Təntənəli drujina xətti qurtaranda İsrafilov saatına baxıb dedi:

-Uşaqlar, yarım saatdan sonra arxeoloq Davud Nəsibovu xəstəxanadan evlərinə yola salacaqlar. O da xilaskarı Muxtarı görmək istəyir. İcazə versəydiniz Muxtarı maşınla xəstəxanaya göndərərdik.

-Getsin! Getsin!-deyə yerbəyerdən səslər eşidildi.

-Muxtarla birlikdə bütün uşaqlar məktəb həyatinə axışdılar. O, gəlib «QAZ-69» maşınına minəndə İsrafilova dedi:

-Yoldaş rəis, Aslan da mənimlə gedə bilərmi?

-Bax, bu maşın sənin ixtiyarındadır. Kimi istəyirsən, apar.

-Rəisin bu sözü Muxtarın qəlbini fərəhlə doldurdu. Odur ki, sevinclə:

-Aslan, Solmaz, Şamil siz də gəlin!-dedi.

-Uşaqlar maşına mindilər. Bu vaxt Muxtar Cabirlə Kamili gördü onları da çağırdı. Amma onlar öz işlərindən xəcalət çəkərək yerlərindən tərpənmədilər.

Muxtar çox şad idi. Onu sevindirən nə təşəkkür, nə fəxri fərman, nə də qol saatı idi. Bu balaca oğlanı fərəhləndirən, qəlbini dağa döndərən yaralının sağalması, həyata qayıtmasıydı. Həyatda bundan da böyük mükafat olardımı?!



## KİTABIN İÇİNDƏKİLƏR

Keçiddə hadisə................................................................................ 3
Qorxulu yer ..................................................................................... 6
O, yolda öldü ................................................................................ 11
At sahibsiz gəldi ... ........................................................................ 13
Səlmi xala xoş xəbər gətirdi.......................................................... 16
Xəstəxana bağında söhbət ............................................................ 18
Ümid professora qalmışdı...... ...................................................... 21
Qoçaq Muxtar................................................................................. 22
Uşaqların kələyi ........................................................................... 24
Kitabda ləkələr vardı.... .................................................................30
Hamının qanı qara idi......................................................................33
Maşın buraxıldı ...........................................................................34
Rəqəmlər pozulmuşdu ...................................................................44
Təşəkkür əvəzinə töhmət................................................................51
Xəyalların ağır məngənəsində........................................................56
Cinayət cinayətliyində qalır ...........................................................60
Pasport tullanmışdır........................................................................62
Şofer Zeynalovun məktubu... .........................................................67
Görəsən məhkəmə də bağışlayacaqmı? ..........................................74
Həyatda ən böyük mükafat ............................................................78

***Redaktoru*** Ə. Əhmədova
***Rəssamı*** N. Məmmədov
***Bədii redaktoru*** Y. Ağayev
***Texniki redaktoru*** B. X. Qurbanova
***Korrektorları*** S. Həbibzadə, M. Əliyeva

Yığılmağa verilmiş 16/XP-1966-cı il.
Çapa imzalanmış 22/1P-1967-cı il.
FQ 13628. Kağız (formatı 84x108 $^1/_{32}$.
Çap v. 4,1. Uçot nəşr. v. 5,8.
Sifariş № 14. Tirajı 6.000.
Qiyməti 18 qəp.

Azərbaycan SSR Nazirlər Soveti
yanında Mətbuat Komitəsi. „Gənclik"
Nəşriyyatı, Bakı, Hüsü Hacıyev
küçəsi, № 4. „Qızıl Şərq" mətbəəsi,
Bakı, Həzi Aslanov küçəsi, № 80.